

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 25 (20.926)

8 fevral 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Soçidə keçiriləcək Qış Olimpiya Oyunlarının rəsmi açılışında iştirak etmək üçün fevralın 6-da Rusiya Federasiyasına işgüzar səfərə gəlmişlər.

* * *

Fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Soçidə Çex Respublikasının Prezidenti Miloş Zeman ilə görüşmüşdür.

* * *

Fevralın 7-də Soçidəki “Fişt” stadionunda XXII Qış Olimpiya Oyunlarının açılışı mərasimi keçirilib.

Mərasimdə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev və xanımı Mehriban Əliyeva iştirak ediblər.

* * *

Fevralın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin adından XXII Qış Olimpiya Oyunlarının açılış mərasimində iştirak etmək üçün Soçiyə gələn yüksək səviyyəli qonaqların şərəfinə rəsmi qəbul təşkil olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva rəsmi qəbulda iştirak etmişlər.

# 2013-cü ilin yekunları müzakirə edilir



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən nazir Xalid İsgəndərov bildirmişdir ki, 30 yanvar 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-cü ilin yekunlarına dair keçirilən müşavirədə nazirlik qarşısında konkret vəzifələr qoyulmuşdur. Bu vəzifələrin yerinə yetirilməsində muxtar respublikanın bütün maliyyə işçiləri öz qüvvələrini səfərbər etməli, göstərilən qayğıya əməli işlə cavab verməlidirlər.

Nazir diqqətə çatdırmışdır ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə bütün mənbələr hesabına 55 milyon manat proqnoza qarşı 64 milyon 857 min 623 manat vəsait daxil olmuş, tapşırıq 117,9 faiz icra olunmuşdur. Bu, nəzərdə tutulan məbləğdən 9 milyon 857 min 623 manat, 2012-ci illə müqayisədə isə 5,9 faiz, yaxud 3 milyon 604 min 57 manat çoxdur.

Dövlət büdcəsinin xərcləri 2013-cü ildə 618 milyon 338 min 225 manat dürüst təyinata qarşı 604 milyon 199 min 788 manat və ya 97,7 faiz icra olunmuşdur ki, bu da 2012-ci illə müqayisədə 134 milyon 795 min 709 manat və ya 28,7 faiz çoxdur.

Bildirilmişdir ki, hələ də işdə bəzi nöqsanlar qalmaqdadır. Belə ki, 2013-cü ildə nazirlik tərəfindən aparılan təftiş və yoxlamalarda 23 min 834 manat əməkhaqqının artıq ödənilməsi, 1164 manat məbləğində artıq ödənilmiş ezamiyyə xərci, 1597 manat dəyərində mal-materialın kəsir gəlməsi, 17 min 203 manat dəyərində mal-materialın və yanacağın normadan artıq silinməsi faktı qeydə alınmışdır.

Bu nöqsanların aradan qaldırılması üçün tədbirlər görülmüş, cəmi 43 min 798 manat məbləğində qanunsuz sərf olunmuş bu vəsaitin 39 min 418 manatı dövlət büdcəsinə bərpa edilmiş, qalan 4 min 380 manat məbləğində vəsaitin dövlət büdcəsinə bərpa edilməsi istiqamətində işlər aparılır.

Nöqsan və catışmazlıqların aradan qaldırılması üçün işçilərin peşə bacarıqlarının artırılması ilə bağlı kursların təşkil edilməsinin, həmçinin test imtahanlarının keçirilməsinin vacibliyini diqqətə çatdıran nazir birdirmişdir ki, vaxtaşırı təlimlərin, kursların keçirilməsinə baxmayaraq, hələ də bəzi büdcə təşkilatları hesabatları vaxtında və milli standartlara uyğun təqdim edə bilmirlər. Ona görə də seminarlar başa çatdıqdan sonra büdcə təşkilatlarına reydlər təşkil olunmalı və mühasiblərin işləri yerində yoxlanılmalıdır.

Qeyd olunmuşdur ki, 2014-cü ildə muxtar respublikanın bütün maliyyə əməkdaşları yüksək səviyyədə fəaliyyət göstərməli, verilən tapşırıqları vaxtında, keyfiyyətlə icra etməli və mövcud nöqsanları aradan qaldıraraq 2014-cü büdcə ilinin uğurla başa çatdırılmasına nail olmalıdırlar.

Məruzə ətrafında çıxışlar olmuş, nazirliyin 2014-cü il üçün iş planı müzakirə edilmişdir.

* * *



*Dünən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində də 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilmişdir. Səhiyyə naziri Niyazi Novruzov iclası giriş sözü ilə açaraq ötən ilin bir sıra əlamətdar hadisələrlə yadda qaldığını bildirmişdir.*

Qeyd olunmuşdur ki, muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək üçün ucqar dağ kəndlərində əhaliyə səhiyyə xidməti göstərmək məqsədilə yaradılmış həkim briqadaları ötən il də fəallıq göstərmiş, yerlərdə müayinə-müalicə işi aparmışlar.

Bildirilmişdir ki, 2013-cü ildə tibb işçilərinin ixtisas səviyyəsini artırmaq məqsədilə seminar və konfranslar keçirilmiş, bir qrup səhiyyə işçisi Bakı şəhərindəki, Türkiyə Respublikasındakı müxtəlif klinika və xəstəxanalara təkmilləşmə kurslarına göndərilmiş, həkimlərin sertifikasiyası davam etdirilmişdir.

Ötən il də Bakı şəhərindən və Türkiyə Respublikasından müxtəlif ixtisaslar üzrə yüksək ixtisaslı həkimlər və kollektivlər muxtar respublikaya dəvət olunmuş və yerli həkimlərlə birgə xeyli sayda əməliyyat aparmışlar.

Nazir səhiyyə xidmətinin səviyyəsinin yaxşılaşdırılması üçün həyata keçirilən tədbirlərin həcminin yaxşılaşdırılmasına, yeni səhiyyə ocaqlarının istifadəyə verilməsinə baxmayaraq, bir sıra nöqsanların da mövcud olduğunu bildirmiş, bu nöqsanların aradan qaldırılması üçün lazımi tədbirlərin görüləcəyini demişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış etmişdir.

*Fevralın 7-də Naxçıvan Şəhər İcra Hakimiyyətində 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirəni icra başçısı Vüqar Səfərov açmışdır.*



Müşavirədə Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi Azər Nağıyevin, Maliyyə Şöbəsinin müdiri Aqil Nəsirovun, Dövlət Sığorta Agentliyinin direktor əvəzi Sadiq Muradovun, Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyevin, Qaz İstismarı İdarəsinin rəisi Mahmud Əbilsoyun hesabatları dinlənilmişdir.

2013-cü ildə Naxçıvan şəhərinin ictimai və təsərrüfat həyatında abadlıq-quruculuq işlərinin geniş vüsət aldığını, ötən ilin sosial iqtisadi sahədə əldə olunan uğurlarla yadda qaldığını vurğulayan icra başçısı bildirmişdir ki, bəhs olunan dövrdə Naxçıvan şəhərində sənaye məhsulunun ümumi həcmi 627 milyon 853 min 100 manat olmuş, pərakəndə əmtəə dövriyyəsi isə 1 milyard 108 milyon 699 min 100 manat təşkil etmişdir.

İl ərzində iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən Naxçıvan şəhərində əsas kapitala qoyulan investisiyanın həcmi 700 milyon 888 min 900 manat olmuşdur.

Əhalinin sosial müdafiəsi və təminatı məsələlərinə də böyük önəm verildiyini diqqətə çatdıran icra başçısı bildirmişdir ki, Dövlət Sosial Müdafiə Fondunun Naxçıvan Şəhər Şöbəsinin 2013-cü ildə gəlirləri 33 milyon 321 min 20 manat, xərcləri isə 36 milyon 167 min 600 manat olmuş, ötən il 33 milyon 321 min 20 manat məcburi dövlət sığorta haqqı yığılmışdır.

İşdə buraxılan nöqsanlardan da danışan Vüqar Səfərov diqqətə çatdırmışdır ki, qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmək üçün hər bir müəssisə və təşkilat öz fəaliyyətini dərindən təhlil etməli, nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün lazımi tədbirlər görülməlidir.

Bildirilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 31 yanvar 2014-cü il tarixdə “2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram”ın təsdiq edilməsi haqqında” imzaladığı Sərəncam muxtar respublika rəhbərinin Naxçıvan şəhər sakinlərinə göstərdiyi diqqət və qayğının əyani ifadəsidir.

Biz hər birimiz bu qayğıya cavab olaraq çalışdığımız sahədə daha da yaxşı işləməli, muxtar respublikamızın 90 illiyini qeyd etdiyimiz “Muxtariyyət ili”ndə üzərimizə düşən vəzifələri daha layiqincə yerinə yetirməli, Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafına dair proqramın icrasına öz layiqli töhfələrimizi verməli və bütün sahələr üzrə işlərimizə nəzarəti daha da artırmalıyıq.

* * *



*Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində də 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclası ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov açaraq məruzə ilə çıxış etmişdir.*

“Əlverişli mühitin yaradılmasında ən mühüm amillərdən biri meşə ehtiyatlarının qorunması, bərpası və artırılmasıdır. 1995-ci ildən sonra bu sahədə görülən işlər nəticəsində yaşıllıqların sahəsi 10 dəfədən çox artmışdır”, – deyən məruzəçi bildirmişdir ki, ötən il, ümumilikdə, 531 hektar sahədə yaşıllaşdırma tədbirləri həyata keçirilmişdir. 257,6 hektar sahədə meşəbərpa işləri aparılmış, 273,4 hektar sahədə yeni meşə massivləri, meyvə bağları və qoruyucu yaşıllıq zolaqları salınmışdır.

Qeyd olunmuşdur ki, “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”na uyğun olaraq, 2013-cü ildə muxtar respublika ərazisində 203,8 hektar sahədə meyvə – alma, ərik, alça, qoz, badam, tut bağları salınmışdır.

Bildirilmişdir ki, hesabat ilində tingçilik sahələrində yetişdirilmiş 350 min ədəddən çox ting əkin dövriyyəsinə daxil edilmişdir. Bunun 76 faizi meyvə tingləridir. Orta və yüksək dağlıq ərazilərdə meyvəçiliyin inkişaf etdirilməsi üçün həmin ərazilərin xüsusiyyətlərinə uyğunlaşdırılmış tinglərin yetişdirilməsi məqsədilə qoruq və milli park ərazilərində 2,5 hektar tingyetişdirmə sahələri yaradılmışdır.

Naxçıvan Muxtar Respublikasının daxili sularında, Araz çayı və dəryaçasının muxtar respublika hüdudlarına aid olan hissəsində suların ekoloji vəziyyətinin nəzarətdə saxlanılması məsələsinə də toxunan nazir bu məqsədlə müxtəlif monitorinqlərin aparıldığını bildirmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Kollegiya iclasına ekologiya və təbii sərvətlər naziri Hafiz Yaqubov yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

# Ötən ilə uğurla yekun vurulub



***Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində də ötən ilin yekunlarına həsr olunmuş kollegiya iclası keçirilmişdir. Kollegiya iclasında komitə sədri Bəxtiyar İsmayılov məruzə ilə çıxış etmişdir.***

“Dövlət Statistika Komitəsinin WEB səhifəsində statistik məlumatlar, hesabat formaları, təlimatlar, metodoloji izahlar, elektron kitabxana, statistik lüğət yerləşdirilmişdir”, – deyən komitə sədri qeyd etmişdir ki, bu internet resursu üzrə müəssisə və təşkilatlar tərəfindən hesabatların elektron formada təqdim olunması üçün “Elektron xidmətlər” bölməsində “Rəsmi statistik hesabatların təqdim edilməsi” menüsü yaradılmış, hesabat təqdim edəcək müəssisə və təşkilatlar statistika orqanlarına gəlmədən hesabatlarını internet vasitəsilə elektron formada təqdim etmişlər. Bundan əlavə, “Elektron xidmətlər” bölməsində “Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi” və “Statistik məlumatların (göstəricilərin) verilməsi” menüləri yaradılmışdır ki, bu da, öz növbəsində, istifadəçilərin daha geniş informasiya əldə etməsinə şərait yaratmışdır.

Ötən dövr ərzində komitə aparatının aidiyyəti şöbələri tərəfindən komitənin internet saytında müvafiq göstəricilər yerləşdirilmişdir. İnternet saytında aylıq makroiqtisadi göstəricilərin, təhlil materiallarının və muxtar respublikada istifadəyə verilmiş obyektlərin fotoşəkillərinin yerləşdirilməsi işləri mütəmadi olaraq aparılmaqdadır.

İş planına uyğun olaraq, ötən il uçot vahidlərinin dövlət reyestrində qeydiyyatda olan təsərrüfat subyektlərinin göstəricilərinin aktuallaşması prosesi görülmüş tədbirlər nəticəsində nəzərdə tutulmuş vaxtda başa çatdırılmışdır. Uçot vahidlərinin dövlət reyestrində qeydiyyatda olan bütün müəssisələrlə əlaqə yaradılmış, müvafiq göstəricilər dəqiqləşdirilmişdir. Bu dövr ərzində hesabat intizamına cəlb olunmayan hüquqi şəxs qalmamışdır.

İqtisadi fəaliyyətin bütün sahələri üzrə təhlil materialları hazırlanaraq rəhbər orqanlara təqdim olunmuş, sosial-iqtisadi və demoqrafik proseslər davamlı qaydada izlənilmişdir.

Ötən dövr ərzində kütləvi informasiya vasitələri ilə də sıx əlaqə saxlanılmış, muxtar respublikanın sosial-iqtisadi vəziyyətini əks etdirən təhlili materiallar dərc edilmişdir.

Komitədə kadr hazırlığını daha da təkmilləşdirmək məqsədilə müxtəlif vaxtlarda keçirilən treninqlərdə Ticarət, xidmət və texniki təchizat statistikası, Qiymət statistikası, Mühasibat uçotu və hesabatı və Kənd təsərrüfatı statistikası şöbələrinin əməkdaşlarının iştirakı təmin edilmişdir.

Qeyd olunanlarla yanaşı, ötən dövr ərzində işdə bir sıra nöqsanlar da mövcud olmuşdur. Cari ildə bu nöqsanların aradan qaldırılması üçün lazımi tədbirlərin görülməsi vacibdir və bu istiqamətdə ciddi iş aparılacaqdır.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

“Fond hesabat dövründə özəl təsərrüfat subyektləri ilə işçilər arasında əmək müqavilələrinin bağlanmasını və əmək müqaviləsində əks olunan real əməkhaqqına uyğun məcburi dövlət sosial sığortasına cəlbolunma işini diqqətdə saxlamış, işə yeni qəbul olunan işçilərin dövlət sosial sığorta sistemində uçota alınmasına, onların sosial sığorta şəhadətnamələri ilə təmin olunmasına nəzarəti artırmış, həmçinin könüllü sığortanın mahiyyəti və üstünlükləri ilə bağlı təbliğat və maarifləndirmə işlərinin yüksək səviyyədə aparılması sahəsində fəaliyyətini gücləndirmişdir”. Bunu Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunda ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda fondun sədri Rasim Hüseynov demişdir.



Bildirilmişdir ki, ötən il Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun hesabına 43 milyon 650 min manat plana qarşı 52 milyon 915 min 460 manat vəsait daxil olmuş, proqnoz tapşırıqlara 121,2 faiz əməl olunmuşdur. Daxil olan vəsait nəzərdə tutulan məbləğdən 9 milyon 265 min 460 manat, yaxud 21,2 faiz çox, 2012-ci ildə yığılan vəsaitdən isə 5 milyon 355 min 580 manat, yaxud 11,3 faiz çox olmuşdur. 2013-cü ildə özəl sektordan daxil olan məcburi dövlət sosial sığorta haqqı 9 milyon 398 min 740 manat olmuşdur ki, bu da ötən illə müqayisədə 2 milyon 398 min 660 manat, yaxud 34,3 faiz çoxdur. Beləliklə, hesabat dövründə özəl sektordan daxil olan vəsaitlər ümumi daxilolmaların 17,7 faizini təşkil etmişdir. Bu göstərici əvvəlki ilin müvafiq göstəricisindən 3,7 faiz çoxdur. Özəl sektor üzrə daxil olan 9 milyon 398 min 740 manat vəsaitin 7 milyon 599 min 570 manatı, yaxud 80,8 faizi özəl sektora aid hüquqi şəxslərdən, 1 milyon 108 min 640 manatı, yaxud 11,8 faizi fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən, 690 min 530 manatı, yaxud 7,4 faizi isə torpaq mülkiyyətçilərindən daxil olmuşdur.

Qeyd edilmişdir ki, hesabat dövründə pensiya və müavinətlərin maliyyələşdirilməsinə 103 milyon 377 min 200 manat vəsait yönəldilmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu orqanlarında qeydiyyatda olan 49 min əmək pensiyaçısının əmək pensiyasının baza hissəsinin aylıq məbləği 727 min 750 manat artırılmışdır. Əmək pensiyaları və müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 51 faizi sığortaedənlərdən məcburi dövlət sosial sığorta haqqı şəklində yığılmışdır ki, bu da əvvəlki ilin müvafiq dövründəki göstəricidən 4 faiz çoxdur. Hazırda ödəniş aparılan pensiyaçıların muxtar respublika üzrə 52 min 317 nəfəri, yaxud 100 faizi pensiyasını plastik kartlarla alır.

Sonra məruzə ətrafında fondun rayon şöbələri müdirlərinin çıxışları olmuşdur.

* * *



Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində 2013-cü il ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair keçirilən kollegiya iclasında xidmətin rəisi Nizami Məmmədov məruzə ilə çıxış etmişdir. Bildirilmişdir ki, 2013-cü il ərzində xidmətdə Daşınmaz Əmlakın Dövlət Reyestrinin bütün bölmələri üzrə 5058 əmlak üzərində yaranan hüquqların qeydiyyatı, o cümlədən mənzillər bölməsi üzrə 1049, fərdi yaşayış evi bölməsi üzrə 1978, torpaq sahəsi bölməsi üzrə 1950, qeyri-yaşayış binası bölməsi üzrə 31, qeyri-yaşayış sahəsi bölməsi üzrə 36, əmlak kompleksi bölməsi üzrə 12, çoxmərtəbəli yaşayış binası bölməsi üzrə 2 əmlaka dair hüquqların dövlət qeydiyyatı aparılmışdır.

Hesabat dövründə hüquq sahiblərinə (yüklülüyün qeydiyyatı ilə birlikdə) 5527 daşınmaz əmlakın dövlət reyestrindən çıxarış verilmişdir ki, bu da əvvəlki illə müqayisədə 552 ədəd çoxdur.

2013-cü ildə muxtar respublikada daşınmaz əmlakın vahid kadastrının aparılması sahəsində xidmətin müvafiq sektorları, rayon və şəhər şöbələri tərəfindən daşınmaz əmlak obyektlərinin, o cümlədən torpaq sahələrinin texniki inventarlaşdırma işinin aparılması, onların kağız və elektron kadastr məlumat bazasının yaradılması istiqamətində işlər müvəffəqiyyətlə davam etdirilmişdir.

Qeyd olunmuşdur ki, 2013-cü ildə, bütövlükdə, xidmət üzrə əmlak üzərində yaranmış hüquqların dövlət qeydiyyatı üçün baza sənədi sayılan 2139 ədəd texniki sənəd hazırlanmışdır ki, bunun 920 ədədini torpaq sahələri üçün plan-ölçülər, 1219-nu isə müxtəlif növ əmlaklara dair texniki pasportlar təşkil edir.

Kollegiya iclasında işdə buraxılan nöqsan və çatışmazlıqlar da ətraflı təhlil olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Naxçıvan, Şərur, Şahbuz rayon şöbələrinin müdirləri Dünyamalı Babayevin, Əsgər Balayevin, Şahlar Fətullayevin, Kəngərli və Babək rayon şöbələrinin müdir əvəzi Rəşad İbrahimovun, Ayxan Axundovun çıxışları olmuşdur.

* * *

***Şərur Rayon İcra Hakimiyyətində ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr edilmiş müşavirə keçirilmişdir. Müşavirədə rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov məruzə ilə çıxış etmişdir.***



Bildirilmişdir ki, ötən il rayon İcra Hakimiyyəti üçün inzibati binanın, rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsi üçün binanın və texniki parkın, Dəmirçi, Sərxanlı, Xanlıqlar, Şahbulaq və Gümüşlü kəndlərində kənd mərkəzlərinin, həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin, Sərxanlı kəndində 234, Şahbulaq kəndində 110 şagird yerlik tam orta məktəb binalarının tikintisi, Dəmirçi kəndində 1026, Xanlıqlar kəndində 396, Gümüşlü kəndində 132 şagird yerlik tam orta məktəb binalarının yenidən qurulması, rayon Qeydiyyat Şöbəsi üçün inzibati binanın əsaslı, rayon Mərkəzi Xəstəxanasının, Zeyvə Kənd Mərkəzinin və Düdəngə kənd tam orta məktəb binasının cari təmiri başa çatdırılmışdır.

Qeyd olunmuşdur ki, hesabat ilində rayon Yol Təmir-Tikinti İdarəsi tərəfindən iki körpünün tikintisi, bir körpünün təmiri, 7 kilometr uzunluğunda Gümüşlü-Şahbulaq avtomobil yolunun, Xanlıqlar kəndində 3,4, Sərxanlı kəndində 1,5, Dəmirçi kəndində 0,8 kilometr uzunluğunda avtomobil yollarının yenidən qurulması başa çatdırılmışdır.

“Ötən il 3 min 181 hektar sahənin taxılı biçilmiş, 8 min 247 ton məhsul əldə edilmişdir”, – deyən icra başçısı əlavə etmişdir ki, bəhs olunan dövrdə buğda istehsalının stimullaşdırılması məqsədilə torpaq mülkiyyətçilərinə 297 min manat yardım və 1049 ton pulsuz mineral gübrə verilmişdir. Vurğulanmışdır ki, 2013-cü ildə rayonda 19 min 581 ton tərəvəz, 9 min 995 ton kartof, 5 min 303,5 ton bostan məhsulları, 18 min 50 ton meyvə,1478,5 ton üzüm istehsal olunmuşdur. Həmçinin rayonda ekoloji tarazlığın qorunması, yaşıllıq sahələrinin artırılması diqqət mərkəzində saxlanılmış, keçirilən iməciliklərdə 22,3 hektar sahədə yeni bağ salınmış, 16,5 hektar meyvə bağında isə bərpa işləri aparılmışdır.

Rayon əhalisinin elektrik enerjisi ilə təmin olunması və enerji itkisinin qarşısının alınması məqsədilə bir sıra işlər görülmüş, Arpaçay Su Elektrik Stansiyası və Xanlıqlar kəndində 35/10 kilovoltluq yarımstansiya istifadəyə verilmişdir. Təbii qazla təminat və qaz xətlərinin təmiri ilə əlaqədar görülən işlərin keyfiyyəti artırılmış, 224 fərdi yaşayış mənzilinə qaz xətti çəkilmişdir.

2013-cü ildə rayonda 395 nəfər abunəçiyə yeni telefon xətti çəkilmiş, kənd ATS-lərinin tutumu 14 min 640-a, internet istifadəçilərinin sayı isə 1135 nəfərə çatdırılmışdır. Dəmirçi, Xanlıqlar, Sərxanlı, Gümüşlü və Şahbulaq kəndlərində rabitə xətləri tamamilə yenidən qurulmuşdur.

Təhsil, səhiyyə, mədəniyyət və idman sahələrində qazanılan nailiyyətlərdən də danışan İbrahim Məmmədov aztəminatlı ailələrə göstərilən dövlət qayğısından bəhs etmişdir.

İşdə buraxılan nöqsanların da geniş müzakirə olunduğu müşavirədə vurğulanmışdır ki, “Muxtariyyət ili” elan olunmuş 2014-cü ildə də genişmiqyaslı quruculuq-abadlıq tədbirlərinin, yaşıllıq sahələrinin genişləndirilməsi işlərinin davam etdirilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

***Dünən Naxçıvan Tibb Kollecində 2013-cü ilin yekunlarına və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaq keçirilmişdir.***

Yığıncaqda kollecin direktoru İlhamə Mustafayeva çıxış edərək bildirmişdir ki, 2012-2013-cü tədris ilinin II yarısında kollecdə tələbələrin ümumi sayı 439 nəfər olmuş, onlardan 290 nəfər ödənişli əsaslarla, 149 nəfər isə dövlət hesabına təhsil almışdır.



Dərs prosesində informasiya-kommunikasiya texnologiyalarından lazımi qaydada istifadə edilməsi, dərslərdə əyaniliyin təmin olunması məqsədilə kollecə 2 elektron lövhə və 11 kompüter verilərək 6 elektron lövhəli sinif, 2 kompüter sinfi yaradılmışdır ki, bunlar da internet şəbəkəsinə qoşulmuşdur. Müəllimlərin informasiya-kommunikasiya texnologiyalarından istifadəsini yaxşılaşdırmaq məqsədilə kollecdə kompüter kursları təşkil olunmuşdur.

Ötən tədris ilində kollecin müəllimləri tərəfindən “Latın dili” kitabı tərtib edilərək tələbələrin istifadəsinə verilmişdir. “Anatomiya, fiziologiya və patologiyanın əsasları” kitabı və “Tibb bacısının masaüstü kitabı” isə tərtib edilərək çapa təqdim edilmişdir.

Kollecdə təkmilləşdirmə kursları təşkil olunmuş, 18 nəfər feldşer, 38 nəfər tibb bacısı keçirilmiş kurslarda iştirak etmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

Yığıncaqda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov çıxış etmişdir.

* * *

***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsində 2013-cü ilin yekunları ilə bağlı yığıncaq keçirilmişdir. Yığıncağı idarənin rəisi Vüqar Babayev açaraq məruzə ilə çıxış etmişdir.***

Bildirilmişdir ki, 2013-cü ildə Dini Qurumlarla İş üzrə İdarənin təşkilatçılığı ilə dini icma sədrlərinin, eləcə də fəal dindarların iştirakı ilə muxtar respublikanın rayonlarında mütəmadi olaraq “Dövlət-din münasibətləri və maarifləndirmə işi” mövzusunda iclaslar keçirilmişdir. İclasların keçirilməsinin əsas məqsədi dini maarifləndirmə işinin aparılmasından, həmçinin dini icmaların cəmiyyətdə radikalizm meyillərinin qarşısının alınmasından və milli-mənəvi dəyərlərimizin təbliğindən ibarət olmuşdur.

Qeyd edilmişdir ki, Aşura günündə xürafi, dinimizlə uyğunlaşmayan hərəkətlərə yol verilməməsi, müqəddəs günün əsl mahiyyətinin düzgün başa düşülməsi istiqamətində Naxçıvan şəhərində və muxtar respublikanın digər rayonlarında fəaliyyət göstərən icma başçıları və din xadimləri ilə maarifləndirici söhbətlər aparılmışdır.

Hesabat dövründə müxtəlif orqanlardan ekspert rəyi verilməsi üçün idarəyə təqdim olunmuş dini məzmunlu ədəbiyyata ekspert rəyi verilmişdir. Nəticədə, dövlətçiliyimizə zidd, ifrat şiəlik prinsipini təbliğ edən və məzhəb ayrı-seçkiliyi salan dini təyinatlı ədəbiyyat və əşyaların muxtar respublika ərazisində yayılmasının qarşısı alınmışdır. Dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, eləcə də icmaların fəaliyyətlərinə ciddi nəzarətin təşkil olunması məqsədilə hər ay Naxçıvan şəhərindəki Heydər məscidində icma rəhbərləri ilə iclaslar keçirilmiş, onlarla dini icmaların fəaliyyətlərini təkcə dini məsələlər ətrafında deyil, həm də Vətənimiz, dövlətimiz və cəmiyyətimiz üçün ümummilli maraqlar müstəvisində qurmaları istiqamətində söhbətlər aparılmışdır.

Sonra məruzə ətrafında dini icma rəhbərlərinin çıxışları olmuşdur.

**Xəbərlər şöbəsi**



MUXTARİYYƏT

Naxçıvan Muxtar Respublikası – 90

**Ulu öndər Heydər ƏLİYEV:** *Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq.*



**Azərbaycan Prezidenti cənab İlham Əliyev 2014-cü il yanvarın 14-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda qeyd olunduğu kimi:** ***"Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır. Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik olan muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır..."***

# Qədim türk torpağı Naxçıvanın muxtariyyət salnaməsi

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** *Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır.*

Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Bunu nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında 2014-cü ili Naxçıvan Muxtar Respublikasında "Muxtariyyət ili" elan etmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb, çətin və kəşməkəşli tarixi inkişaf yolu keçmişdir. Vaxtı ilə coğrafi cəhətdən Azərbaycanın mərkəzi ərazilərindən olan Naxçıvan XX əsrin əvvəllərində Azərbaycandan ayrı düşmüş, onunla sərhədi ərazi itirməsi hesabına ləğv olunmuşdur. İri kapitalist dövlətlərinin, xüsusilə Rusiyanın məqsədi Naxçıvanı Ermənistana vermək, bununla türk dünyasının bir-biri ilə əlaqəsini kəsmək idi. Erməni daşnakları isə yaranmış şəraitdən istifadə edərək Azərbaycanın bir sıra torpaqlarını "böyük Ermənistan"a qatmaq siyasəti aparmışlar. Onların bu niyyətlərində Naxçıvanın zəbt edilməsi ilk planda durmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ingilislərin və amerikalıların dəstək və yardımlarından istifadə edən erməni millətçiləri Naxçıvanı işğal etməyə çalışmışlar. Lakin qəhrəman naxçıvanlıların mərdlik və igidliklə apardıqları mübarizə məkrli düşmənlərin arzularının reallaşmasına imkan verməmişdir. Naxçıvanın qəhrəman əhalisi Naxçıvan diyarını Azərbaycanın ayrılmaz tərkib hissəsi hesab etmiş, Ana Vətənə birləşmək uğrunda inadla mübarizə aparmışdır.

Naxçıvanlıların qəhrəmanlığından bəhs edən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli Azərbaycan parlamentindəki çıxışında demişdir: "İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar".

Ermənistanın Naxçıvana olan iddialarının artdığı bir dövrdə – 1918-ci il iyulun 7-də Kazım Qarabəkir Paşanın başçılığı ilə türk ordusu Naxçıvana gəldi və erməni özbaşınalığının qarşısını aldı. Lakin Birinci Dünya müharibəsində məğlub olduğuna və Mudros müqaviləsinin şərtlərinə görə, türk qoşunları Azərbaycanı, eləcə də Naxçıvanı tərk etdi. Bu zaman naxçıvanlılar qarşısında çıxış edən Kazım Qarabəkir Paşa bildirdi ki, "Naxçıvanın gələcək müqəddəratını təmin etmək üçün burada bir hökumət qurulması vacib və zəruridir. Zatən siz naxçıvanlılar milli azadlıq mübarizəsində tarixə şanlı səhifələr yazmışsınız. Dövlətçilik hüququna və ləyaqətinə maliksiniz. Siz bu hüququ, haqqı döyüş meydanlarında düşmənə qələbə çalaraq qazanmışsınız. Şərqin qapısında, Naxçıvanda bir cümhuriyyət qurulmalıdır".

Naxçıvanlılar bu diyarı erməni işğalından qorumaq üçün 1918-ci il noyabrın 3-də Araz-Türk Respublikası adlı cümhuriyyət yaratdılar. Araz-Türk Respublikası hökumətinin tərkibi sədrdən və 6 üzvdən ibarət idi. Hökumətin sədri Əmir bəy Əkbərzadə idi. Bu respublikanın ərazisinə Naxçıvan qəzası, Ordubad dairəsi, Sürməli qəzası, Üçmüəzzin qəzasının bir hissəsi, Sərdarabad, İrəvan qəzasının bir hissəsi – Uluxanlı, Qəmərli, Vedi, Şərur-Dərələyəz qəzası, Mehri bölgəsi daxil idi. Sahəsi 8696 kvadratkilometrə çatırdı. Əhalisi bir milyon nəfərdən artıq idi.

Araz-Türk Respublikasının yaradılmasında ən başlıca məqsəd bölgənin erməni işğalına düşməsinə imkan verməmək idi. Hökumətin rəhbərliyi bu istiqamətdə fəal iş aparırdı. Araz-Türk Respublikasının hərbi qüvvələrinin yaradılması və formalaşdırılmasında hərbi nazir İbrahim bəy Cahangiroğlunun böyük əməyi olmuşdur. Onun köməyi ilə qısa müddətdə silahlı qüvvələr təşkil olunmuş, 500 nəfərlik süvari alayı yaradılmışdır. Könüllü xalq dəstələri təxminən 20 tabordan ibarət idi. Taborlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Zəngibasar, Vedibasar və Qəmərlidə yerləşdirilmişdi.

Baş Noraşen, Düdəngə və Zeyvədə yerləşən taborlara Fətulla Hüseynov, Şərurda, Sədərəkdə yerləşən taborlara Həsən Şahverdi oğlu, Ordubaddakı tabora İbrahimxəlil Axundov, Nehrəm taboruna Kəlbə Muxtar, Cəhri taboruna Kəlbə Kərim, Dizə taboruna Məmmədrza bəy, şəhər taboruna Hüseyn Əliyev komandanlıq edirdi. Respublika əhalisinin öz müstəqilliyini qorumaq əzmi o qədər böyük idi ki, doğma ocaq və torpaqlarını müdafiə edən könüllü dəstələr işğalçıları təkcə darmadağın etmir, həm də İrəvanın özünü qorxuya salırdı.

Respublika ərazisində milis idarələri və onların sahə şöbələri də yaradılmışdı. Bütün qüvvələr Naxçıvanın qorunmasına və idarə olunmasına yönəlmişdi. Könüllü müqavimət dəstələri erməni daşnaklarına layiqli cavab vermişdi. Xüsusilə Şərur-Dərələyəz mahalındakı Zeyvə kəndi yaxınlığında baş verən döyüşdə Kalbalı xanın rəhbərliyi ilə 6 min nəfərlik könüllü müqavimət dəstələri erməni hərbi qüvvələrini darmadağın etmişdilər.

Aralarında müəyyən fikir ayrılıqlarına baxmayaraq, Naxçıvanın müdafiəsində Cəfərqulu xan, Kalbalı xan, Kərim xan, Rəhim xan, Kamran xan və yerli ziyalılar çox böyük xidmətlər göstərmişlər. Kalbalı xan respublika silahlı dəstələrinə komandanlıq edir, erməni hücumlarının qarşısını alırdı.

1919-cu ilin yanvarında ingilislər Naxçıvana gəldilər və burada general-qubernatorluq yaratdılar. Bir ay sonra Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri də Naxçıvana gəlib çıxdılar. Keçirilən müzakirələrdə siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələləri özündə birləşdirən akt tərtib edildi. Bu akt Naxçvanın könüllü surətdə AXC-yə birləşməsi haqqında idi.

Naxçıvan əhalisi diyarın ingilislər tərəfindən Ermənistana verilməsinə qarşı mübarizəyə qalxdı. Bununla əlaqədar Naxçıvan Müsəlman Milli Şurasının üzvləri ingilis general-qubernatoruna məktub göndərdilər və öz qəti etirazlarını bildirdilər. Məktubda Araz-Türk Respublikası əhalisinin "bütün dünyanın və bütün mədəni qüvvələrin azad həyat, xalqların öz müqəddəratını həll etmək hüququ haqqında qışqırdıqları bir vaxtda azərbaycanlılar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə, bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər" fikrinə gəlməsi faktı və səbəbləri öz əksini tapmışdır.

Naxçıvandakı ingilis missiyası ermənilərin respublika hüdudlarına hücumuna mane olmurdu və onların fəaliyyətində ikili siyasət özünü açıq-aşkar göstərirdi. Onlar bir tərəfdən Naxçıvanın Azərbaycanın bir hissəsi olduğunu tanıyır, maliyyə və silah vəd edir, digər tərəfdən isə Naxçıvanın daşnak Ermənistanın hakimiyyətinə verilməsi təklifi ilə çıxış edirdilər. Naxçıvan əhalisi bu siyasətə qarşı inadla mübarizə aparırdı.

Naxçıvan Milli Şurasının sədri Azərbaycan Respublikası xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi məktubda bildirirdi ki, biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik və əminik ki, hər hansı səbəbdən hərbi qüvvə ilə kömək edə bilməsə də, heç olmasa top, tüfəng və patronla Azərbaycan bizə kömək edəcəkdir. Və hətta Azərbaycan bundan da imtina etsə, biz bu yolda canımızdan keçəsi olsaq belə, müqəddəs vədimizi yerinə yetirəcəyik.

İngilis nümayəndələri çox canfəşanlıqla Naxçıvanı erməni "idarəçiliyinə" vermək istəyirdi. Müsəlman Milli Şurası və Naxçıvan əhalisi buna qəti etiraz edirdilər. Əhalinin bir müraciətində deyilirdi: "Ermənilərə tabe olmaqla biz təkcə özümüzü yox, həm də ömrü boyu bizə lənətlər oxuyacaq nəslimizi alçaltmağa və təhqirə məruz qoyuruq və buna görə də əlahəzrət general Devinin bizim Naxçıvan, Şərur və Vedibasar rayonlarımızın müvəqqəti də olsa,

Ardı 4-cü səhifədə



erməni hökumətinin idarəsinə verməsinə biz Allah tərəfindən bütün diyarın əhalisinə bəxş edilmiş azadlıq, arzu və meyillər üzərində zorakılıq faktı kimi baxırıq”.

İngilis komandanlığının və Ermənistan hökumətinin qərarlarına tabe olmayan naxçıvanlılar erməni işğalçılarına qarşı silahlı mübarizə aparırdılar. Respublikada süvari, top və pulemyotları olan 6 min əsgərdən ibarət yarınizami qoşun yaradılmışdı. Hərbi əməliyyatlar zamanı naxçıvanlılar onların sayını təxminən on min əsgərə və silahlı könüllülərə çatdırdılar.

Erməni qoşunları dəfələrlə Naxçıvana hücum etmiş və layiqli cavablarını almışdılar. Naxçıvanın şəhər və kəndlərinə hücumlarda təkcə düşmənin nizami qoşunları deyil, erməni əhalisi də iştirak edirdi. Ermənilər general-qubernatorluq elan etsələr də, nə ingilis nümayəndələri, nə də general-qubernator şəhərdə yerləşə bilməmiş, onlar şəhərdən 3 km uzaqda – hərbi kazarmada yerləşmişdilər. Kalbalı xanın başçılığı ilə Naxçıvan xalq qoşunu daşnak qüvvələrini darmadağın edib Naxçıvan və onun ətraflarından qovdular.

Bu zaman ermənilər bir neçə min adam, iki top, səkkiz pulemyot və bir zirehli qatar itirdilər. 800 erməni əsgəri və 8 zabiti əsir alınmışdı. Bundan istifadə edən respublika hökuməti öz nümayəndəsi Səməd bəy Cəmillinskini müvəqqəti general-qubernator təyin etdi, diyarı idarə etmək üçün zəruri olan dövlət idarələri yaradıldı. S.Cəmillinskinin əmri ilə Xəlil bəy diyar qoşunlarının baş komandanı, Kalbalı xan isə onun köməkçisi (eyni zamanda Naxçıvan qoşun dəstəsinin komandiri) təyin olundu.

1919-cu ilin yayında Naxçıvanda olan amerikalı polkovnik Rey Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xanla danışıqlar apardı. Polkovnik V.Haskel Naxçıvan, Şərur və Dərələyəz qəzalarında xüsusi zona və bu ərazidə Amerika general-qubernatorluğu yaratmaq istəyirdi. Bununla əlaqədar V.Haskel öz layihəsini N.Yusifbəyliyə təqdim etdi. Bunu eşidən Cənub-Qərbi Azərbaycan müsəlmanlarının ümumi iclasının sədri Əli Səbri Qasımov, yerlilər cəmiyyətinin sədri Z.Məmmədov və nümayəndə heyətinin üzvü A.Nəcəfov hazırladıqları 10 maddəlik tələbnaməni N.Yusifbəyliyə təqdim etdilər. Bu tələblərin əsasında Naxçıvanı Azərbaycanın tərkibində saxlamaq fikri dayanırdı.

1919-cu il sentyabrın əvvəllərində Naxçıvan nümayəndələri Ə.S.Qasımov və K.M.Əsgərov polkovnik V.Haskelə 10 bəndlik memorandum təqdim etdilər. Görüş zamanı V.Haskel Ə.S.Qasımovdan soruşdu ki, Naxçıvanın və digər regionların əhalisi bu regionların erməni hökumətinə verilməsinə necə baxar? Əli Səbri Qasımov bildirdi ki, əldə silah ləyaqətli ölümü üstün tutarıq bu hökuməti bütün qüvvələri ilə rədd edərlər.

Naxçıvan əhalisi polkovnik Reyə bildirdi ki, onlar azərbaycanlı general-qubernatordan başqa heç kimi tanımaq istəmirlər. Əhalisi Azərbaycan türkləri olan Naxçıvan, Şərur, Dərələyəz rayonları, Vedibasar və Milistan Azərbaycanın ayrılmaz hissəsidir.

Delli və Reyin missiyası süquta uğradı, amerikalıların Naxçıvanda möhkəmlənmək cəhdi baş tutmadı.

1920-ci ilin martında türk hərbi dəstələri Naxçıvana gəldilər. Kalbalı xan Türkiyənin yüksək hərbi ordeni ilə təltif edildi. Azərbaycan Xalq Cümhuriyyətinin hərbi idarəsi isə daşnaklarla döyüşlərdə göstərdiyi igidliyə görə ona general-mayor rütbəsi verdi.

1920-ci ilin aprelində Azərbaycan XI Qırmızı Ordu tərəfindən işğal edildi, Azərbaycan Xalq Cümhuriyyəti devrildi və Azərbaycanda Sovet hakimiyyəti bərqərar edildi. Naxçıvanda Sovet hakimiyyəti iyulun 28-də elan edildi və Hərbi İnqilab Komitəsi yaradıldı. Bir neçə gündən sonra – avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M.Bektaşov Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanova məktubla müraciət etdi: “Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi hesab edir”.

Çox qəribədir ki, Naxçıvanda olan bolşevik ordusu Ermənistanla müharibə aparır, həm də onlarla siyasi və diplomatik danışıqları davam etdirirdi. Bu danışıqlarda Azərbaycanın hətta mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bunu bilən N.Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: “Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir...”

Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi və mübarizəsi ermənilərin Naxçıvan barəsindəki planlarını pozdu. Bu işdə iri dövlətlər də onlara kömək göstərə bilmədilər. Məkrli niyyətlərini hələlik pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil (Azərbaycanın tərkibində yox – İ.H.) Sovet Respublikası kimi tanımış və bu diyar ilə əlaqədar iddialarından imtina etmişlər.

Beləliklə, bölgə əhalisi 1918-1920-ci illərdə misilsiz çətinliklərə, təqiblərə, müsibətlərə sinə gərərək milli ləyaqəti uca tutdular, diz çökmədilər, erməni silahlı quldur dəstələrinə layiqli cavab verdilər. Bu məsələdən bəhs edən Ermənistanın birinci baş naziri O.Kaçaznuni 1923-cü ildə etiraf edirdi ki, “Müsəlman Naxçıvanı və Şərurunda,... müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilmədik, silaha əl atmağa, qoşun yeritməyə, dağıtmağa və qırğın törətməyə məcbur olduq. Vedibasar, Şərur, Naxçıvan kimi mühüm yerlərdə öz hakimiyyətimizi hətta silah gücünə qura bilmədik, məğlub olduq və geri çəkildik”.

Naxçıvan diyarının əhalisi özlərini Azərbaycandan ayrı təsəvvür etmirdilər. Onlar hələ o vaxt öz qəti fikirlərini belə ifadə etmişdilər: “Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz”.

1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin keçirdikləri rəy sorğusunda Naxçıvanın 90 faiz əhalisi mahalın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasında B.Şahtaxtinskinin də böyük əməyi və tarixi xidməti olmuşdur. O, 1921-ci il martın 1-də Leninə göndərdiyi məktubda Naxçıvan, Zəngəzur, Dağlıq Qarabağ ərazilərinin gələcəyindən duyulan rahatsızlığı çatdırmış, bu mahalların milli tərkibi və coğrafiyasına dair arayışları da əlavə etmiş, Güney Qafqazda sərhəd məsələləri və xüsusilə də Naxçıvan bölgəsi ilə bağlı faydalı təkliflər vermişdi. Bu zaman Türkiyə nümayəndələrinin Rusiya ilə apardığı danışıqlarda Naxçıvan məsələsinə də önəm verilirdi.

Beləliklə, referendumun nəticəsi, B.Şahtaxtinskinin təklifi, Türkiyə tərəfinin tələbi ilə Naxçıvan üzərində Azərbaycanın suverenliyinin təmin edilməsi və ən nəhayət, Naxçıvan əhalisinin neçə illər apardıqları inadlı mübarizə Naxçıvanın Azərbaycanın tərkibində qalmasına səbəb oldu. 1921-ci il martın 16-da Siyasi Büro Azərbaycanın himayəsində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul etdi və həmin gün imzalanan Moskva müqaviləsinin 3-cü maddəsində də bu cəhət öz əksini tapdı: “Naxçıvan vilayəti bu müqavilənin I (B) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir”.

Güney Qafqaz respublikaları ilə Türkiyə arasında imzalanan Qars müqaviləsi (1921, 13 oktyabr) Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi və onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Beləliklə, 1917-ci ildən mübarizə aparan naxçıvanlıların arzuları gerçəkləşdi, bölgənin ərazi mənsubiyyəti məsələsi Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu.

1921-ci ildən 1924-cü ilədək, yəni muxtariyyət statusundan muxtar respublikanın təşkilinə kimi çoxsaylı müzakirələr getmişdir. Bu müzakirələrdə bir məsələ aydın idi ki, Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti – geosiyasi şəraiti ilə bağlı idi. Naxçıvanın Azərbaycandan aralı düşməsi, heç bir sərhədə malik olmaması onun inzibati idarəçiliyini qəza və ya rayon hüquqlarında təşkil etməyə imkan vermirdi. 1923-cü il iyunun 16-da Naxçıvan muxtar diyar (ölkə) elandırıldı. 1924-cü il yanvarın 4-də Zaqafqaziya MİK Naxçıvan diyarını Naxçıvan MSSR elan etdi. 1924-cü il fevralın 9-da Azərbaycan MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul etdi.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul edilmiş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının birinci Konstitusiyası ilə təsbit edildi. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası sonrakı konstitusiyalarında da Naxçıvan Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində muxtar respublika kimi göstərilmişdir.

Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsində 1995-ci il noyabrın 12-də qəbul edilmiş müstəqil Azərbaycan Respublikası Konstitusiyasının mühüm rolu oldu. Konstitusiyanın 134-cü maddəsinin ilk bəndində deyilir: “Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir”.

Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasında Naxçıvan muxtar dövlət kimi ifadə olunmuş və onun Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika olduğu təsbit edilmişdir.

Müxtəlif dövrlərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri dövlət səviyyəsində qeyd olunmuş, 1949-cu ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50 illik yubileyləri keçirilmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi qeyd edilmişdir. Yubiley tədbirlərində iştirak edən və təntənəli yubiley iclasında nitq söyləyən ümummilli lider Heydər Əliyev demişdir: ***“Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunun qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin burada böyük əhəmiyyəti vardır. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir”.***

Ulu öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər bu gün də uğurla davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin 9 fevral 2004-cü il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 80 illik, 6 fevral 2009-cu il tarixli Sərəncamı ilə 85 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 14 yanvar 2014-cü il tarixli Sərəncamında göstərilir ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir.

Naxçıvan Muxtar Respublikasının 85 illik yubiley tədbirlərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvanın muxtariyyət statusunun ölkəmizin müstəqillik tarixində mühüm əhəmiyyətə malik olduğunu bildirərək demişdir: ***“Naxçıvanın muxtariyyət statusu ötən əsrin 90-cı illərində Azərbaycanın müstəqillik uğrunda apardığı mübarizə dövründə mühüm mərhələ təşkil etmişdir. Bu status imkan verirdi ki, ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdəki siyasi fəaliyyəti dövründə Naxçıvan xalqımızın suveren hüquqlarının təmin edilməsi uğrunda gedən mübarizənin mərkəzinə çevrilsin”.***

Bu gün muxtar respublikanın statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanınması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. 2012-ci il oktyabrın 16-18-də Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin Strasburqda keçirilən 23-cü plenar sessiyasında qəbul olunan sənədlərin birində Naxçıvan Muxtar Respublikası ilə bağlı çox mühüm və tarixi əhəmiyyət daşıya biləcək məqam əks olunmuşdur. Həmin hissə Ali Məclis Sədrinin tövsiyəsi ilə hazırlanmış və nümayəndə heyəti tərəfindən Memoranduma daxil edilmişdir.

Sənəddə qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının konstitusion-hüquqi statusu Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarına, habelə hazırda qüvvədə olan 2 beynəlxalq müqaviləyə əsaslanır. Bundan başqa, qeyd olunmuşdur ki, muxtar respublikanın statusu həm milli qanunvericilik, həm də beynəlxalq müqavilələrlə müəyyən olunmuşdur. Maddənin sənədə salınması Azərbaycan, xüsusilə Naxçıvan Muxtar Respublikası üçün böyük siyasi əhəmiyyət kəsb edir.

İlk dəfədir ki, Naxçıvan Muxtar Respublikasının statusunu, sərhədlərini müəyyən edən 1921-ci ildə qəbul olunan Moskva və Qars beynəlxalq müqavilələri beynəlxalq təşkilatın sənədlərində hazırda qüvvədə olan hüquqi sənəd kimi qiymətləndirilir. Ölkəmiz, o cümlədən muxtar respublikamız üçün mühüm olan beynəlxalq müqavilənin hüquqi qüvvəsinin Avropa Şurası kimi nüfuzlu bir beynəlxalq təşkilat tərəfindən tanınması, şübhəsiz ki, ölkə və muxtar respublika rəhbərliyinin bu sahədə apardığı fəal diplomatik fəaliyyətin məntiqi nəticəsidir.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, regionu çiçəklənən diyara çevirmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublika 18 il ərzində hərtərəfli inkişaf edir, əsl intibah dövrünü yaşayır. Həyatın bütün sahələrində əsaslı dəyişikliklər baş vermiş və bu işlər bu gün də sürətlə və ardıcıl davam etdirilir.

***Naxçıvanın muxtar respublika statusu bu bölgənin 90 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir. Ölkə Prezidentinin dediyi kimi:*** *“Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.*

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# Naxçıvan muxtariyyəti beynəlxalq model kimi



**Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 ili tamam olur. Azərbaycanın son yüzillik siyasi tarixinin ən mühüm hadisələri siyahısında layiqli yer tutan Naxçıvanın muxtariyyət tarixi ölkəmizin, Cənubi Qafqazın, bütövlükdə, regionun siyasi həyatında əhəmiyyətli bir tarixdir. Dünya tarixində və siyasi coğrafiyasında Naxçıvan Muxtar Respublikasının yerləşdiyi bu qədər kiçik, təbii resurslarla o qədər də zənginliyi ilə seçilməyən ərazinin əhəmiyyətli siyasi faktor kimi mövcud olmasına çox az misal var. Elmdə bu tip hadisələrə qiymət verilərkən buna fenomen deyilir. Bu siyasi fenomenin qiymətləndirilməsi, öyrənilməsi və təhlil edilməsi, şübhəsiz, indiki və gələcək nəsil tədqiqatçılar, xüsusilə son dövr təşəkkül tapmış Naxçıvanşünaslıq məktəbi üçün mühüm tədqiqat predmeti olaraq qalacaq.**

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 14 yanvar 2014-cü il tarixli Sərəncamı muxtariyyətin Azərbaycan dövlətçiliyində oynadığı rola verilən yüksək qiymətdir. Naxçıvanın milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətlərini, muxtariyyətin Azərbaycanın beynəlxalq münasibətlərindəki yerini bu sərəncamda qeyd edən ölkə başçısı cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının yaradılmasını Azərbaycanın siyasi tarixinin əhəmiyyətli hadisə kimi qiymətləndirməsi həqiqətən böyük bir tarixi hadisəyə, görülən işlərə, qazanılmış yüksək mövqelərə verilən olduqca əhəmiyyətli siyasi qiymətdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərində – milli azadlıq hərəkatının vüsət aldığı müstəqilliyimizin ilk dövrlərində Naxçıvan Muxtar Respublikası Azərbaycanda demokratikləşmə, milli dirçəliş və dövlətçiliyin bərpası uğrunda gedən proseslərin önündə olmuşdur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvana qayıdışı və bu proseslərə dəstək verməsi, sonradan isə muxtar dövlətin başçısı kimi hərtərəfli fəaliyyəti Naxçıvanın muxtariyyət statusunun saxlanılması, bölgənin işğaldan qorunması, muxtar respublikanın beynəlxalq səviyyədə səsinin eşidilməsində mühüm rol oynamışdır. Naxçıvanın muxtariyyəti Azərbaycan dövlətçilik tarixində olduqca əhəmiyyətli hadisə olmaqla xalqımızın tarixi varisliyinin bu torpaqlarda etibarlı təminatçısı rolunu oynamışdır.

***Naxçıvan muxtariyyəti hüquqi, siyasi və tarixi baxımdan bir fenomendir***

XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan bu gün artıq Avropa ailəsinin tərkib hissəsi olaraq, bu məkana inteqrasiya yolunu seçmişdir. Bu baxımdan Azərbaycanın tərkib hissəsi Naxçıvan Muxtar Respublikası da bu sistemdə özünəməxsus yerə və rola malikdir. Naxçıvanın muxtariyyət modeli bir tərəfdən son 50 ildə Avropada gedən regionalizasiya və əksmərkəzləşmə tendensiyası, bu sahədə institutların formalaşması, əlaqələrin və mexanizmlərin yaradılması cəhətdən maraqlıdırsa, digər tərəfdən xüsusi şərtlərlə yaradılan, artıq böyük tarixi yol keçmiş uğurlu bir model kimi Avropada tanınmaqdadır. Bu cəhətdən həqiqətən Naxçıvanın muxtariyyət modeli çox unikaldır və burda yaradılan institusional əsaslar, hüquqi mexanizmlər Avropanın istər elmi, istərsə də siyasi institutları tərəfindən öyrənilməkdədir. Naxçıvan muxtariyyətinin unikallığı bir neçə səbəblə bağlıdır. Naxçıvan Muxtar Respublikasının statusu bir çox analoji muxtar qurumlardan fərqli olaraq, daxili qanunvericiliklə yanaşı, həm də beynəlxalq müqavilə ilə müəyyən olunmuşdur. Bu hal Avropa qitəsində çox az sayda muxtar qurumların statusunda əksini tapır. Avropanın analoji qurumlarından yalnız Gürcüstanın Acarıstan Muxtar Respublikası və Finlandiyaya məxsus Aland adaları beynəlxalq müqavilə ilə yaradılsa da, Naxçıvan Muxtar Respublikasının statusu və burdakı muxtariyyətin siyasi səlahiyyətləri yuxarıda qeyd olunan hər iki muxtar qurumdan fərqlidir. Naxçıvanla eyni beynəlxalq müqavilə ilə muxtar qurum formasında təşkil olunan Acarıstanın siyasi səlahiyyətləri məhduddur və daha çox inzibati-iqtisadi səlahiyyətlərə aiddir. Birinci Dünya müharibəsindən sonra Millətlər Liqası tərəfindən yaradılan Aland adalarındakı muxtariyyət isə dövlət statusuna malik deyil. Hər iki muxtar qurumdan fərqli olaraq, Naxçıvan Muxtar Respublikasının siyasi səlahiyyətlərə malik muxtar dövlət statusunda fəaliyyət göstərməsi, bu statusun dəyişdirilməsi (geri çağırılması) prosedurunun mövcud olmaması və muxtariyyətin həm milli, həm də beynəlxalq müqavilələrlə müəyyənləşdirilməsinin konstitusion səviyyədə əksini tapması Naxçıvan muxtariyyətini fərqləndirən əsas amillərdəndir. Digər tərəfdən, Naxçıvan muxtariyyəti daxili qanunvericilik, sərbəst büdcə siyasəti sahəsində, muxtariyyətin mərkəzi hakimiyyətlə əlaqələr mexanizminin istər siyasi, istərsə də hüquqi cəhətdən müsbət mənada heç yerdə təkrarlanmayan xüsusiyyətlərə malikdir. Unitar dövlət olan Azərbaycanın tərkibində muxtar dövlətin, prezidentlik üsul-idarəsi olan dövlətin tərkibində parlamentar respublikanın mövcud olması da bu xüsusiyyətlərdən biridir. Ən əsası isə bütün bu xüsusiyyətlər və özünəməxsusluqlar burda mükəmməl siyasi-hüquqi mexanizmlərin təşəkkül tapmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, Naxçıvan muxtariyyətinin bu xüsusiyyətləri Avropanın müxtəlif dövlətlərarası təşkilatları tərəfindən də dəfələrlə qeyd olunmuşdur. Naxçıvanın muxtariyyət modeli 30 oktyabr 2013-cü il tarixdə Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin sessiyasının sənədlərində xüsusi olaraq qeyd olunmuşdur. Sessiyada İtaliyadan olan məruzəçi Bruno Marzianonun "Avropada xüsusi statusa malik region və ərazilər" adlı hesabatında Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu da xüsusi qeyd olunaraq belə bir modelin çox faydalı olduğu vurğulanmışdır. Bu cür dəyərləndirmə 1997-ci ildə Venesiya Komissiyasının Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinə verdiyi rəydə də öz əksini tapmışdır.

Bu gün Naxçıvan Muxtar Respublikası bir çox sahələrdə – iqtisadi, mədəni, o cümlədən siyasi əlaqələrdə nailiyyətlər qazanmışdır. Naxçıvan Muxtar Respublikasının uğurları, burda qazanılan sosial-iqtisadi nailiyyətlər, yaradılan potensial Naxçıvanı bölgədə ən cəlbedici tərəfdaşa çevirməkdədir. Bu uğurların fonunda Naxçıvan Muxtar Respublikasının getdikcə güclənən, dünyadakı yerini möhkəmləndirən Azərbaycanın inkişaf etmiş regionu olaraq daha çox xarici siyasət sahəsinə nüfuz etməsi, onun potensialının təbliğ etdirilməsi nəticəsində muxtar respublikamız fəal iqtisadi və mədəni diplomatiyanın aktiv subyektinə çevrilmişdir. Bu baxımdan Naxçıvanda keçirilən sammitlər, beynəlxalq tədbirlər, İslam Əməkdaşlıq Təşkilatı tərəfindən Naxçıvan şəhərinin 2018-ci il İslam Mədəniyyətinin paytaxtı seçilməsi artıq Naxçıvanın bu münasibətlərdəki yerinin və rolunun göstəricisidir. Bu gün Naxçıvan Muxtar Respublikası həm də çoxtərəfli əsasda Avropada ən nüfuzlu təşkilatlardan olan Avropa Şurasında təmsil olunur. 2001-ci ildən etibarən Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Naxçıvan parlamentinin nümayəndəsi təmsil olunmaqdadır. Digər tərəfdən, Naxçıvan Muxtar Respublikası Avropa Birliyi ilə "Şərq tərəfdaşlığı" proqramına uyğun əməkdaşlıq etməkdədir. Avropa Birliyinin Regionlar Komitəsinin dəvəti ilə Naxçıvan Muxtar Respublikası "AB-Şərq tərəfdaşları" formatında yaradılan yeni təşkilatın – "Şərq tərəfdaşlığı"nın Regional və Yerli Hakimiyyətlərinin İllik Konfransının (CORLEAP) yaradılması üçün 2011-ci ilin sentyabr ayında Poznanda (Polşa) keçirilən konfransda təsisçilər sırasında yer almışdır. 2012-ci ilin fevral ayından etibarən Naxçıvan Muxtar Respublikası CORLEAP-ın bürosunda da təmsil olunmaqdadır ki, bu da muxtar respublikanın getdikcə artan siyasi potensialından xəbər verir.

***Bu günümüzün Naxçıvanı özünün 90 illik muxtariyyət yubileyi günündə istər siyasi, istərsə də iqtisadi sahədə qazandığı uğurlarla fəxr edir. Naxçıvan xalqımızın qədim dövlətçilik ənənələrinə əsaslanaraq müasir, inkişaf etmiş bir region kimi bundan sonra da regionda və dünyada özünəməxsus yerini saxlayacaq, onun üzərinə qoyulan missiyanı uğurla həyata keçirməyə davam edəcəkdir.***

**Anar İBRAHİMOV**
**Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri**

***"Fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 90-cı ili tamam olur. Naxçıvanın muxtariyyəti Azərbaycanın XX əsrdə əldə etdiyi böyük tarixi nailiyyətlərdəndir. Muxtariyyət statusu hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana çıxmışdır.***

# AMEA Naxçıvan Bölməsində elmi konfrans keçirilib

Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət qazanmasını dövlətçilik tariximizdə mühüm nailiyyət kimi qiymətləndirərək demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".*** Bu fikirləri dünən AMEA Naxçıvan Bölməsində "Moskva, Qars müqavilələri və Naxçıvanın muxtariyyət statusu" mövzusunda keçirilən elmi konfransda bölmənin sədri, akademik İsmayıl Hacıyev açılış nitqində səsləndirmişdir.



Elmi konfransda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, dosent Emin Şıxəliyevin "XX əsrin əvvəllərində Türkiyə-Rusiya münasibətlərində Azərbaycan amili", həmin institutun direktoru, professor Fəxrəddin Səfərlinin "Moskva müqaviləsi və onun tarixi əhəmiyyəti", institutun şöbə müdiri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Qars müqaviləsi Naxçıvan Muxtar Respublikasının qarantı kimi" mövzularında məruzələri dinlənilmişdir.

Məruzələrdə bildirilmişdir ki, Sovet Rusiyası ilə Türkiyə arasında bağlanmış Moskva müqaviləsi ilə Cənubi Qafqaz respublikaları arasında mübahisəli olan bir çox məsələlər öz hüquqi həllini tapdı. Bundan sonra Rusiya çalışırdı ki, Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında vahid müqavilə imzalansın. Türkiyə isə üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə imzalanmasının tərəfdarı idi. 1920-1921-ci illərdə Cənubi Qafqazın tam sovetləşdirilməsi və bu respublikalarda siyasi hakimiyyətin faktiki olaraq Sovet Rusiyasının nəzarətinə keçməsi Türkiyəni Sovet Rusiyasının təklif etdiyi formatda müqavilə imzalamağa məcbur etdi. Türkiyənin bu formatda danışıqlara getməsinin başqa səbəbləri də var idi. İlk növbədə, Türkiyə Moskva müqaviləsini imzalamaqla özü üçün çox mühüm bir neçə məsələni həll etmişdi. Bunlardan biri də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və onun himayəsi altında muxtariyyət yaradılması idi.

Aparılan diplomatik danışıqlar və yazışmalardan sonra Türkiyə ilə üç Cənubi Qafqaz respublikası arasında Rusiya nümayəndəsinin iştirakı ilə konfransın 1921-ci il sentyabrın 26-da Qars şəhərində keçirilməsi razılaşdırıldı. AK (b)P MK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə xalq fəhlə-kəndli nəzarəti komissarı B.Şahtaxtinski Azərbaycan SSR-in konfransdakı nümayəndəsi təyin olundu. Qars konfransı 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək olduqca gərgin və prinsipial şəraitdə keçdi. Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında 13 oktyabr 1921-ci ildə Qarsda müqavilə imzaladı. Müqavilə 20 maddə və 3 əlavədən ibarətdir. Bu müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və ona muxtariyyət verilməsi məsələsi təsbit olundu. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular.

Beləliklə, Moskva və Qars müqavilələri Naxçıvanın statusu və təbeçiliyi məsələsini beynəlxalq müqavilələrlə tam şəkildə həll etdi. Qars müqaviləsi müddətsiz imzalanmışdır və bu müqaviləni imzalayan dövlətlərdən hər hansı biri onu birtərəfli qaydada ləğv edə bilməz. Qars müqaviləsi 1922-ci ilin mart-iyun aylarında müqaviləni imzalayan ölkələrin qanunverici orqanlarında təsdiq edilmiş və həmin il sentyabrın 11-dən qüvvəyə minmişdir.

Elmi konfransa AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev yekun vurmuşdur.

# Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir



***Fevralın 7-də Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə muxtar respublikanın yaranmasının 90 illiyinə həsr olunmuş konfrans keçirilmişdir.***

Gənclər və idman nazirinin müavini Məcid Seyidov konfransı giriş sözü ilə açaraq tədbirin əhəmiyyətindən danışmışdır.

Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının sədri Arzu Abdullayev, nazirliyin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov tədbirdə məruzə ilə çıxış etmişlər. Qeyd olunmuşdur ki, Naxçıvanın muxtariyyəti Azərbaycanın XX əsrdə əldə etdiyi böyük tarixi nailiyyətdir. Ümummilli lider Heydər Əliyev Naxçıvanın muxtariyyət statusuna regionun inkişafı baxımından yüksək qiymət vermişdir.

Vurğulanmışdır ki, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi 1924-cü il fevralın 9-da Naxçıvan muxtar diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsini qanuniləşdirdi. Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Naxçıvan MSSR-in birinci Konstitusiyası ilə təsbit edildi. Naxçıvanın sonrakı konstitusiyalarında da Naxçıvan Azərbaycanın tərkibində muxtar respublika kimi göstərilmişdir.

Konfransa Naxçıvan Muxtar Respublikası gənclər və idman nazirinin müavini Məcid Seyidov yekun vurmuşdur.

**Xəbərlər şöbəsi**

# Muxtariyyət dövrünün ədəbi mühiti

*Azərbaycan ədəbiyyatına C.Məmmədquluzadə, H.Cavid, M.S.Ordubadi, Ə.Qəmküsar, H.İbrahimov, M.Araz, A.Babayev, İ.Səfərli kimi görkəmli şair və yazıçılar bəxş edən Naxçıvan zaman-zaman ədəbiyyatımızın inkişafına güclü təsir göstərib.*

1928-ci ildə Bakıda fəaliyyət göstərən "Gənc qələmlər" təşkilatının Naxçıvan filialı yaradılır. 1934-cü ildə Azərbaycan Yazıçılar İttifaqı fəaliyyətə başlayır. Həmin dövrdən başlayaraq Naxçıvanda yaşayıb-yaradan müəlliflər də yeni bir yaradıcılıq təşkilatında çalışırlar. Bir müddət Naxçıvanda Azərbaycan Yazıçılar İttifaqının filialı fəaliyyət göstərir. Lakin ittifaq üzvlərinin sayı az olduğu üçün ittifaq geniş fəaliyyət göstərə bilmir. 1941-1945-ci illər müharibəsindən sonra Yazıçılar İttifaqının Naxçıvan filialı fəaliyyətə başlayır. Ötən əsrin 40-50-ci illərində Naxçıvan ədəbi mühitində imzaları görünən Adil Babayev, İslam Səfərli, Müzəffər Nəsirli, Nağı Nağıyev, Məmmədəli Tarverdiyev, Əbülfəz Abbasquliyev, Əvəz Sadıq, Hüseyn İbrahimov, Hüseyn Razi, Hüseyn Əzim və başqaları sonrakı dövrlərdə Azərbaycan ədəbi mühitində yaxşı tanınan şair və yazıçılar kimi öz sözlərini deyiblər.

1945-1951-ci illərdə yazıçı Nağı Nağıyev Yazıçılar İttifaqının Naxçıvan filialına rəhbərlik edib. Sonra isə Müzəffər Nəsirli və Hüseyn İbrahimov 60-cı ilə kimi ayrı-ayrı vaxtlarda filiala rəhbərlik ediblər.

1958-ci ildə Azərbaycan Yazıçılar İttifaqının Naxçıvanda səyyar plenumu keçirilir. O dövrdə ermənilərin Naxçıvana torpaq iddiaları başlamışdı. Ona görə də Rəsul Rza və Mehdi Hüseyn başda olmaqla bir qrup yazıçı Naxçıvanda olur. Həmin dövrdə Hüseyn Razi, Əliyar Yusifli, Əhməd Mahmud və Kəmalə Ağayeva Yazıçılar İttifaqına üzv qəbul olunurlar. Beləliklə, ittifaq üzvlərinin sayı çoxalır və Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan Şöbəsi yaradılır. Şöbəyə yazıçı Hüseyn İbrahimov rəhbərlik edir. 1960-cı ildə yazıçı Hüseyn İbrahimov məsul vəzifəyə irəli çəkilir. Həmin ildən şair Müzəffər Nəsirli şöbəyə məsul katib seçilir. Müzəffər Nəsirli düz iyirmi il – 1980-ci ilin yanvarına kimi şöbəyə rəhbərlik edir.

Bu illərdə Müzəffər Nəsirlinin qayğısı sayəsində ədəbiyyata yeni qüvvələr gəlir. Elmira Qasımova, Validə Hüseynova, Adil Qasımov, Güllü Məmmədova, Akif Axundov, Həmid Arzulu, Altay Tağızadə, Həsən Valeh, Elman Həbib, Bayram İsgəndərli, Muxtar Qasımzadə, Vaqif Məmmədov, Asim Yadigar, Rafiq Babayev, Məmməd Tahir, Rahilə Elçin, Fərəc Fərəcov, Həsənəli Eyvazlı, İbrahim Yusifoğlu, Cavanşir Eloğlu, Budaq Təhməz, İnqilab Orxan, Vaqif Kərimov və başqaları bu illər ərzində mərkəzi və yerli qəzetlərdə çıxışlar edir, bəziləri ilk kitablarını oxucuların ixtiyarına verirlər. Bu illərdə "Odlu ürəklər", "Arazın işıqları", "Arazın nəğmələri", "Arpa çayı aşdı-daşdı" almanaxları çap olunur. Həmin almanaxlarda yaşlı şair və yazıçılarla yanaşı, adlarını yuxarıda qeyd etdiyimiz müəlliflərin də şeir və hekayələri işıq üzü görür.

1980-ci ildə yazıçı Hüseyn İbrahimov yenidən Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan Şöbəsinə məsul katib seçilir. 80-ci illərdə artıq Naxçıvanda yeni ədəbi qüvvələr yetişirdi. Bu dövrdə ədəbiyyata Kəmaləddin Qədim, Xanəli Kərimli, Allahverdi Aqil, Rafiq Oday, Səhlab Məmmədov, Nəriman Zeynalzadə, Elbəyi Maqsudov, Sərdar Zeynal, Kəmalə Nəsrin, Sərvər Məsum, Zeyqəm Vüqar, Hüseyn Bağır, Maarif Təmkin kimi istedadlı qələm sahibləri gəlirlər.

Həmin dövrdə şöbədə ayda bir dəfə "Gənc istedadlar klubu"nun məşğələsi keçirilirdi. Bəyənilən yazılar "Araz-1", "Araz-2", "Araz-3", "Yaşıl pöhrələr", "Qoy tanısın dünya səni" almanaxlarında çap edilirdi. XX əsrin 90-cı illərində və sonra Xalq yazıçısı Hüseyn İbrahimovun qayğısı ilə "Şəhidlik – ömrün nur çağı", "Araz-4", "Tərənnüm", "Səhər nəğmələri"almanaxları çap olunub.

1970-80-ci illərdə SSRİ Yazıçılar İttifaqının Naxçıvandan cəmi 13 nəfər üzvü var idi. 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi müstəqil təşkilat kimi fəaliyyətə başlayıb. Birliyə yeni üzvlər qəbul olunub. Hal-hazırda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 80 üzvü vardır.

70 illik sovet dönəmində Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılarımızın 150-yə qədər kitabı çap olunduğu halda, son 15-20 ildə 800-ə qədər kitab işıq üzü görüb.

Son 15 il ərzində şair və yazıçılarımıza diqqət və qayğı daha yüksək olub. Bu illər ərzində 2 nəfər yazıçımız Prezidentin fərdi təqaüdünə, 4 nəfər yazıçımız Prezident mükafatına layiq görülüb. "Xalq yazıçısı" adına layiq görülən Hüseyn İbrahimov həm də "Şöhrət" ordeni ilə təltif olunmuşdu. Son illərdə akademik İsa Həbibbəyli "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilib, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, şair Elman Həbib isə "Şöhrət" ordeninə layiq görülmüşdü. Birlik üzvlərindən 3 nəfəri "Tərəqqi" medalı ilə təltif olunub. İki yazıçı Azərbaycanın "Əməkdar elm xadimi", bir nəfər "Əməkdar incəsənət xadimi", üç nəfər "Əməkdar müəllim" fəxri adları ilə təltif ediliblər.

Birlik üzvləri arasında AMEA-nın həqiqi üzvü, müxbir üzvü, 7 nəfər elmlər doktoru, 11 nəfər fəlsəfə doktoru, 4 nəfər Azərbaycanın qabaqcıl maarif xadimi, 11 nəfər "Qızıl qələm" mükafatı laureatı, 22 nəfər isə Azərbaycanın və muxtar respublikanın elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar jurnalisti, əməkdar müəllimi, əməkdar mədəniyyət işçisi var.

Ayrı-ayrı dövrlərdə Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılarımızın əsərləri ədəbi tənqidin diqqət mərkəzində olub. 1958, 1973, 1977-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin Naxçıvanda keçirilən səyyar plenumlarında çıxış edən yazıçı və tənqidçilərimiz özlərinin qələm yoldaşlarının fəaliyyətlərini dərindən təhlil edərək qiymətləndiriblər.

Şair və yazıçılarımızdan Hüseyn İbrahimovun, Hüseyn Razinin, Əliyar Yusiflinin, Kəmalənin, Elmira Qasımovanın, Adil Qasımlının, Muxtar Qasımzadənin, Elman Həbibin, Vaqif Məmmədovun, İbrahim Yusifoğlunun, Xanəli Kərimlinin və başqalarının yaradıcılığı haqqında Azərbaycan mətbuatında tənqidçilərimiz tərəfindən xoş sözlər deyilib.

Muxtar respublikamızda yaşayıb-yaradan tənqidçilərimiz də Naxçıvan ədəbi mühitinin yetirmələri haqqında dəyərli məqalələr, kitablar yazıblar. Belə alimlərimizdən Əbülfəz Amanoğlunun, Yavuz Axundlunun, Hüseyn Həşimlinin, Sevindik Vəliyevin, Elbəyi Maqsudovun, İman Cəfərlinin, Seyfəddin Eyvazlının, Əbülfəz Əzimlinin, Əbülfəz Muxtaroğlunun, Vaqif Məmmədovun, Xanəli Kərimlinin və başqalarının adlarını çəkə bilərik.

Aydın məsələdir ki, hər bir dövrdə ədəbi mühitdə yaşlı nəsil, orta nəsil və gənc nəslin nümayəndələri öz yazıları ilə ədəbi mühiti formalaşdırırlar. Bu baxımdan 2012-ci ilin oktyabr ayının 19-da Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında 10 nəfər gənc yazıçı Yazıçılar Birliyinə üzv qəbul olundu. Bu gün muxtar respublikamızda bədii yaradıcılıqla məşğul olan onlarla istedadlı gənc var ki, onların bir çoxunun kitabları artıq oxuculara təqdim olunub. Qafar Qərib, Zaur Vedili, Elxan Yurdoğlu, Rahil Tahirli, Qanun Ümman kimi şairlərimizin əsərləri artıq Azərbaycan oxucusuna da yaxşı tanışdır.

Son illərdə ədəbiyyata gələn gənclər içərisində Tural Həsənlinin, Elnur Kəlbizadənin, Tural Atəşin, Əzizə Həsənovanın, Məftunə Hüseynbəylinin, Rühəngiz Əliyevanın, İman Əlioğlunun, Gülnarə Yusifqızının, Zeynəb Naxçıvanlının, Fərid Rəfibəylinin, Rasim Rzanın, Günay Məmmədovanın, Gülşən Azərinin, Tacirə Dünyanın, Aytəkin Dəryanın, Sərxan Yaqubun, Kəramət Hümbətoğlunun, Mövlan Əlioğlunun, Humay Nurun və başqalarının adlarını çəkə bilərik ki, onlar da öz kitabları ilə ədəbi mühitdə tanınıb-seçilən istedadlı gəncliyin yeni nümayəndələridir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 85 illiyi münasibətilə "Dünyanın bəzəyi" adlı antologiya çap olunub. Uşaqlar üçün "Uşaqlar və Günəş" adlı almanax işıq üzü görüb.Yaxın günlərdə uşaqlar üçün daha üç kitab nəşr olunacaq. Eyni zamanda bu il bir neçə tərcümə kitabı da çapdan çıxacaqdır.

Naxçıvan Muxtar Respublikasının yaranmasının 90 illiyi münasibətilə yeni bir kitab da bu il oxucuların ixtiyarına veriləcəkdir.

***Bu gün Naxçıvanda yaşayıb-yaradan şair və yazıçılarımız, filoloq alimlərimiz onlara göstərilən yüksək qayğıya cavab olaraq yeni, dəyərli əsərləri ilə oxucularını sevindirməyə çalışırlar.***

**Asim YADİGAR**
***Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri***

# Muxtariyyət tariximiz canlı şahidlərin dili ilə

***Tarix insanların taleyidir, amma bütün insanların taleyi tarix deyil. Başqa sözlə desək, bütün insanların taleyi, sözün geniş mənasında, TARİXƏ çevrilmir. Lakin böyük TARİXƏ məlum olmayan bəzi tarixi faktlar məhz taleyi tarixə çevrilməmiş şəxslərin yaddaşında qalır.***

Naxçıvanın muxtariyyətinin qazanılması ərəfəsində bölgədəki vəziyyət, erməni quldurlarına qarşı bölgə əhalisinin apardığı əzmkar mübarizə, Naxçıvanda Sovet hakimiyyətinin qurulması, Naxçıvanın muxtariyyəti məsələsinin dövlətlərarası danışıqlar əsasında beynəlxalq səviyyədə təsbiti və elan edilməsi ilə bağlı hadisələr müxtəlif sənədlər, müəlliflərin əsərləri əsasında qələmə alınmışdır. Bəs o zamana canlı şahidlik etmiş sadə insanlar? Onlar bu haqda nə bilirlər? Qarşımızda Naxçıvanın muxtariyyətinə canlı şahidlik etdiyini ehtimal etdiyimiz bu diyarın ən yaşlı sakinlərinin siyahısı var. Bəlkə də, görüşəcəyimiz bu qocaman insanların yaddaşında heç nə qalmayıb, bəlkə, illərin ağrı-acısı onlara hər şeyi unutdurub, bəlkə də, artıq onların çoxunun dili söz belə tutmur və daha bir bəlkə... Bəlkə, onlardan birinin yaddaşında elə bir fakt var ki, bizim oxucularımız üçün maraqlı olacaq? Siyahıya nəzər yetirdikcə, bu "bəlkə"lər arasında tərəddüd etdikcə sonda bir qərara gəlirik. Onların bir çoxu ilə görüşürük və yaxud da görüşməyə cəhd göstəririk. Bəziləri heç nəyi xatırlamadığını deyir, bəziləri ilə bizi görüşdürməyə söz verən insanlar sonradan müxtəlif bəhanələrlə nədənsə bunu etmirlər. Nəhayət, müsahiblərimizin fikirlərini dinlədikdən sonra 1924-cü ilin 3 şahidinin fikirlərini oxucularımıza təqdim etmək qərarına gəldik.

Onlar eşitdiklərindən, gördüklərindən, yaşadıqlarından danışırlar. Müsahiblərimizdən eləsi də olur ki, illərin hadisələrini bir-biri ilə qarışdırır. Amma bizim üçün yenə də maraqlıdır illərin canlı şahidlərinin fikirləri...

Yol alırıq o illərin canlı şahidinin yaşadığı kəndə – Ordubad rayonundakı Sabirkəndə.

***Firuzə ƏLİYEVA (1900)*** – onun verdiyi məlumatlar, danışdıqları bir çox maraqlı məsələlərə aydınlıq gətirir.

***– Firuzə nənə, eşitmişik ki, o dövrdə hətta məktəb də oxumusunuz. O illərin hadisələri ilə bağlı nəyi xatırlayırsınız?***

– O illərin hadisələrini dastanlara yazasan qurtarmaz, – deyir və bir anlıq susaraq gözünü pəncərəyə dikir Firuzə nənə. Sanki kiminsə onu dinləyəcəyindən ehtiyat edir. Söhbətimizin sonrakı gedişində isə onun nədən çəkindiyinin fərqinə varırıq. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlardan danışır. Deyir ki, ara qarışanda ermənilər gəlib kəndlərin əhalisini yığıb aparıb çölün düzündə güllələyirdilər. Hətta bizim qonşu kəndin adamlarından biri danışırdı ki, onun atasını və başqa qohumlarını bir dərədə dar ağacı qurub asmışdılar. Mənim yadıma dəqiq gəlmir. Amma anam danışırdı ki, sonra Naxçıvanda xalq dəstələri yaradıblar. Ermənilərə daha imkan verməyiblər bizi qırsınlar. Qonşu kəndlərdə bizim də dəstələr var imiş. Bir dəstənin başında Nəzər adında bir adam dururmuş.

***– O illərdə necə dolanırdınız?***

– Aclıq idi, bala. Mənim anam səxavətli qadın idi. Qonşularımız var idi, gəlirdilər bizə. Onda anam bəzilərinə bir ovuc buğda verirdi ki, üyüdüb nəsə bişirsinlər.

> **Tarixi arayış:**
> ***"Bakinski raboçi" qəzeti 27 mart 1923-cü il tarixli 67-ci nömrəsində yazırdı:***
> *"Aclıq çəkənlərə yardım məsələsi yenidən günün növbəti və qaynar məsələsinə çevrilməkdədir.*
> *Ordubad qəzasında 18 kənddə kəndlilərin çörəyi çatışmır".*

***– Bəs sonra nə oldu?***

– Biz məktəbdə oxuyan vaxtlar idi. Əvvəlcə gəlib dedilər ki, yeni hökumət qururuq. Sonra dedilər ki, Naxçıvanın öz hökuməti yaranır.

***– O vaxt Behbud adlı adam eşitmişdiniz?*** – deyə soruşuram Firuzə nənədən. Bir an duruxudqdan sonra düz gözümün içinə baxır və dillənir:

– Hə, eşitmişdim. Onun adını deyirdilər. Özüm şəxsən onu görməmişdim. Amma bir müəllimimiz var idi, deyirdi ki, o, bizim camaata kömək etmək istəyir. Naxçıvanı ermənilərə vermək istəyənlərə imkan vermirmiş. Sonradan başladılar onun haqqında şayiələr yaymağa ki, o, ermənidi: müsəlman paltarı geyib, müsəlman dilini öyrənib. O, müsəlmanları məhv etmək istəyir. Anam həmişə ona dua edirdi. Deyirdi ki, o olmasaydı, Naxçıvanı ermənilərə verəcəkdilər.

> **Tarixi arayış:**
> *Behbud ağa Şahtaxtinski Azərbaycan Kommunist Partiyasında və mərkəzi hökumətdə rəhbər vəzifə tutmuş ermənilərin təzyiqi ilə 1920-ci il dekabrın 1-də Bakı Sovetinin iclasında Zəngəzur və Naxçıvanın Ermənistana verilməsi barədə elan olunmuş bəyanatı kəskin hiddətlə qarşılamış, ədliyyə komissarı kimi üzvü olduğu hökumətin qərarının əleyhinə çıxaraq Naxçıvanda mitinqlər yolu ilə xalqı ayağa qaldırmış, əhaliyə həqiqəti çatdıraraq demişdir ki, əgər o, bu qərar qəbul olunarkən Bakıda olsaydı, ona etiraz edər və mane olardı. Siyasi və diplomatik gedişlər edərək həmin dövrdə imzalanmış Gümrü müqaviləsinin şərtlərini bilərəkdən qabardan və bu müqaviləni Bakı Sovetinin qərarına qarşı qoyan Behbud ağa Şahtaxtinski Bakı Soveti tərəfindən verilən qərarın hüquqi qüvvəyə malik olmadığını bəyan etmiş, çıxış yolunu xalqın birliyində və azad iradənin ifadəsi kimi referendum keçirilməsində görmüşdür. Behbud ağa Şahtaxtinski tərəfindən mərkəzi hökumətlə razılaşdırılmadan Naxçıvanın ərazi mənsubiyyəti ilə bağlı 1921-ci ilin yanvarında keçirilən referendum xalqımızın tarixi taleyində mühüm rol oynamış, qədim Naxçıvan torpağı Azərbaycan ərazisi kimi qorunub saxlanmışdır.*
> *Görünür, bundan sonra Naxçıvan əhalisi arasında onun nüfuzunu sarsıtmaq üçün ona qarşı belə bir iyrənc kampaniyaya start verilmişdir.*

Muxtariyyətin növbəti canlı şahidlərindən biri Culfa rayonunun Əbrəqunus kənd sakini ***Ruqiyyə MİRZƏYEVAdır (1905)***. – O dövrün hadisələri yadımda yaxşı qalmayıb, – deyir Ruqiyyə Mirzəyeva. – Mən Sisyanda anadan olmuşam. Biz Ərəfsədə yaşayırdıq.

Sonra biz bura köçdük. Bilirəm ki, o vaxt Naxçıvanın yerli hökuməti qurulandan sonra vəziyyət yaxşılaşmağa başladı.

Və nəhayət ki, bütün bu müsahibələri apardığımız günlər ərzində getdiyimiz sonuncu ünvan – Şərur rayonunun Kürçülü kəndi. Sonuncu müsahibimiz müsahiblərimiz arasında həm də ən yaşlısıdır. 1898-ci il təvəllüdlüdür Qönçə Hümbətova. O illəri xatırlaması üçün gənclik illəri haqqında bizə danışmasını xahiş edirik. Söhbətinə lap uşaqlıq vaxtlarından başlayır Qönçə nənəmiz.

– Biz əslən Qədili kəndindənik (Qərbi Azərbaycanda yaşayış məntəqəsi – E.K.). O vaxt ermənilər ailəmizi qətlə yetirəndən sonra mən də qaçanlara qoşulub bura gəldim. Sonra ermənilər burada da bizə hücum etməyə başladılar. Adamlar Arazın o tayına keçməyə çalışırdı, mən də bir adamın qolundan tutmuşam ki, məni də aparın. Keçdik çayı. Orda 3 aya yaxın qaldıq. Yarıac vəziyyətdə dolanırdıq. Hərə öz canının hayında idi. Bir dəfə də yuxudan durub gördüm ki, hamı gedib. Bir nəfər gəlib dedi ki, "ay bala, sizin adamlar getdilər, dur sən də get. Qaçdım ki, bizim adamlar hələ Arazın qırağındadırlar, keçməyiblər. Heç kəsi olmayan bir qız idim. Mindik taxtanın üstünə, qayıtdıq bu taya. Gəldik Alışar kəndinə. Gördük ki, burada da dam-daşın həmısı yanıb, heç bir şey yoxdu. Ermənilər yandırmışdılar o dam-daşları.

Sonra türklər gəldilər. Bir az sonra isə onlar da əsgərlərin götürüb getdilər. Bir ara bizə dedilər ki, ermənilərin hökumətinə tabe olacaqsınız. Onda camaat ayağa qalxdı. Sonra necə oldusa, dedilər ki, Naxçıvanın öz hökuməti olacaq.

***P.S. Bizim indi kitablardan oxuduğumuzu birbaşa şahidlərin dilindən dinləmək, bəzən onların səksəkə ilə baxan baxışlarının nəyi axtardığını düşünmək, yaddaşlarında bəzən qarışdırdıqları tarixi hadisələri bir daha onlarla dəqiqləşdirmək istəyimizi başqa bir hiss əvəzləmişdi araşdırmamızı bitirərkən. Muxtariyyətin qazanılması ərəfəsində baş verən qanlı hadisələr, ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı qırğınlar bu insanlardan hər şeylərini – valideynlərini, evlərini, yaşayış şəraitlərini almışdı. Muxtariyyətin 90-cı ildönümündə isə biz onlarla övladlarının, nəvələrinin və nəticələrinin əhatəsində, işıqlı və isti evlərdə görüşürdük.***

***Səni və bu insanların buradakı varlığını qoruyan muxtariyyətin mübarək, NAXÇIVAN!***

**Elnur KƏLBİZADƏ**

# NAXÇIVAN

## muxtariyyət illərində

### Naxçıvan şəhərinin Heydər Əliyev prospekti



1979



2014



2014



1999

### Naxçıvan Dövlət Musiqili Dram Teatrı



1974



2014



*Azərbaycan türklərinin məişətində, inamlar sistemində önəmli yer tutan və qeyri-maddi mədəni irsimizdə qorunub saxlanmasına böyük ehtiyac olan Xıdır Nəbi bayramı ilə bağlı bəzi məqamları oxucularla bölüşmək istərdik. Bəri başdan qeyd edək ki, yazının hazırlanmasında Naxçıvan ərazisindən toplanmış etnoqrafik materiallardan, şifahi xalq yaradıcılığı nümunələrindən, müxtəlif qaynaqlardan və dini mənbələrdən istifadə edilmişdir.*

Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Xızır Peyğəmbərlə bağlı mərasim – Xıdır Nəbi bayramı

Naxçıvan bölgəsinin bir sıra kəndlərində və Naxçıvan şəhərində fevral ayında, yəni "qışın oğlan çağında", "kiçik çillə tüğyan edən vaxt", "kiçik çillənin soyuğu təndirə təpər toyuğu" söylənən bir vaxtda xalq arasında "Xıdır Nəbi" adı ilə bilinən mərasim qeyd edilir. Toplanmış etnoqrafik materiallara əsaslanaraq demək olar ki, bayram Xızır Peyğəmbərin şərəfinə keçirilir. Lakin maraqlı cəhət bundan ibarətdir ki, bayram nəyə görə məhz fevral ayında, qışın ən sərt vaxtı qeyd edilir? Məlum olduğu kimi, Xızır Peyğəmbər daha çox çətinlik anında insanlara yardıma gəlir. Qədim Azərbaycan və Anadolu türklərinin inamına görə, qışın çətin dövründə, hazırlanmış qida, yanacaq və yem ehtiyatının azaldığı vaxt Xızır Peyğəmbərin çağırılması onun yardımına böyük ehtiyacla bağlıdır. Xalq arasında inanılır ki, Xızır özü ilə xız (istilik) gətirəcək, havalar istiləşəcək, "qara qış"a son veriləcək. Buna görə də ilin ən çətin dövründə dardakıların dadına çatan Xızır Peyğəmbəri çağırmaq üçün onun şərəfinə mərasim təşkil olunur. Etnoqrafik materiallara söykənərək demək olar ki, bayram kiçik çillənin 10-cu günü, yəni fevralın 9-da keçirilir. Bu məqamda bir məsələni xüsusi qeyd edək: Naxçıvan şəhərində yanlış olaraq mərasim İslamla əlaqələndirilərək kiçik çillənin ilk cümə axşamında qeyd olunur. Hətta xalq arasında "bəylərin xıdırı", "nökərlərin xıdırı", "rəiyyətin xıdırı" deyə mərasimin üç cümə axşamı qeyd edildiyi də söylənməkdədir. Bir məsələni unutmaq olmaz ki, xalq təqvimi ilə qeyd edilən bütün bayram və mərasimlər dəqiq günlərdə həyata keçirilir. Deməli, Xıdır bayramının müxtəlif günlərdə təkrar olaraq keçirilməsi həqiqətə uyğun deyil və onun dəqiq günü var: bu, kiçik çillə yarı olan gündə, yəni fevralın 9-dadır. Ədəbiyyat materiallarına söykənərək demək olar ki, şimal yarımkürəsinin bir sıra xalqlarında fevralın 9-u və 10-da buna bənzər mərasimlər qeyd edilir. Həmin mərasimlərdə məqsəd istiliyi çağırmaq, qışı yola salmaqdır. Hətta geniş meydanda qışın müqəvvasını düzəldib yandırırlar. Deməli, mərasim müəyyən cəhətdən bəşəri xarakter daşımaqla sırf astronomik məsələlərlə bağlıdır. Yəni sabit vaxta malikdir.

Naxçıvanda Xıdır Nəbinin əsas simvolu qovurğa və qovut hesab edilir. Qovurğa yumşaq hesab olunan "ağ buğda"dan hazırlanırdı. Xalqın inamına görə, toxum üçün ayrılmış buğdadan qovurmaq üçün götürülməzdi. Guya bu, toxumun kəsilməsinə səbəb olar. Qovurğa ilə bərabər, küncüd, günəbaxan toxumu, şabalıd, badam, noxud və sair də qovrulur. Qovrulmuş toxumlar qovurğa ilə qarışdırılır. Qarışığa iydə, kişmiş, mövüc və başqa çərəzlər də qatılır. Qatışığı olmayan qovurğa kirkirə, əl daşı (dəstər) adlanan alətdə çəkilib qovut hazırlanırdı. Quru qovutu yemək çətin olduğundan ona doşab, şəkər tozu əlavə edib ovurlar. Çəkilmiş qovutu bir qaba doldurub axşamdan yükün üstünə və ya taxçaya qoyurdular ki, Xızır Peyğəmbər gecə, insanlar yatandan sonra gəlib ona əl basacaqdır. Səhər erkən qalxıb qoyulmuş qovuta baxardılar. Əgər üzərində müəyyən iz olsa idi, Xızırın ona əl basdığına inanardılar. İnama görə, belə qovut şəfaverici xüsusiyyətlərə malik olur.

Qızlar qovutu isladıb bir qabda divarın və ya qalağın üstünə qoyardılar. Qəcələ (sağsağan) onu dimdiyində hansı istiqamətə apararsa idi, niyyət etmiş qızın da o tərəfdən elçisi olacağına inanılırdı. Xıdır Nəbidə nişanlı qızlara, təzə gəlinlərə pay aparmaq adəti geniş yayılmışdır.

Bəzi kəndlərdə isə Xıdır Nəbi kişilərin bayramı hesab edilməklə nişanlı oğlanlara qız evindən "bayram payı" gətirilirdi. Payın içərisində qovurğa, müxtəlif şirniyyatlar və çərəzlərlə yanaşı, bəyə yundan toxunmuş əlcək, corab, isti köynək də olardı. Adətə görə, bəyə gətirilən həmin yun geyimləri nişanlısı toxuyardı. Təəssüf ki, indi belə yun məmulatların toxunması adəti unudulmağa üz tutmuşdur.

Bayramın ən təntənəli vaxtı hava qaraldıqdan sonra oğlan uşaqlarının qapılara gedib torba, şal ataraq bayramlıq istəməsi ilə başlayır. Bayramlıq almaq üçün uşaqlar aşağıdakı sözləri söyləyərdilər:

*Xıdıra Xıdır deyərlər,*
*Xıdırın payını verərlər.*
**Və yaxud:**

*Çatma, çatma, çatmaya,*
*Çatma yerə batmaya.*
*Hər kəs Xıdırı verməsə,*
*İstəyinə çatmaya.*

Müxtəlif variantda olan uzun şeir parçasını, yəni Xızırla bağlı sözləri hər kəs əzbər bilirdi. Olurdu ki, sözləri söyləməyi ev sahibi tələb edirdi və bilməyəni danlayaraq "bunları öyrən" deyərdi. Sanki adətin qorunub saxlanmasının əhəmiyyətini bildirərdi.

Beləcə, uşaqlar bütün tanış-bilişlərin, qohumların qapısını gəzib pay toplayardılar.

Xıdır Nəbidə müxtəlif inamlara əməl edilir. Həmin gün evin kişisi baltanı götürüb barverməyən ağacın yanına gəlir və ucadan deyir ki, hava soyuq keçir, bu ağac isə barsızdır, kəsirəm yandıraq. Kənardan bir nəfər yaxınlaşıb onu tutur və deyir ki, kəsmə, bu il bar verəcək. Adət "balta çəkmə" adlanır. Oxşar inam yumurtlamayan toyuqlarla bağlıdır. Belə toyuqlar bir təlisə yığılır, sahibi deyir ki, dadlıq qurtarıb, bunlar isə yumurtlamırlar, aparıram hamısını kəsdirəm. Evdəkilərdən biri onu saxlayıb deyir ki, onları aparma, yumurtlayacaqlar. Belə toyuqlara Xıdır Nəbi qovurğası səpmə adəti də vardır. İnama görə, bundan sonra toyuqlar yumurtlamağa başlayırlar. Xalq mərasiminin, birmənalı olaraq, Xızır Peyğəmbərin şərəfinə keçirildiyi, çətinlikdən qurtarılmaq üçün edildiyi söylənilir.

Qarşılıqlı müqayisələr sübut edir ki, mərasim bu və ya başqa formada digər türk xalqları arasında, xüsusən Anadolunun bəzi elatlarında da geniş yayılmışdır. Doğan Türkdoğan "Ələvi İslam inancı içərisində Hz.Xızır" məqaləsində yazır ki, inama görə, yanvar ayının son həftəsindən başlayaraq fevralın 18-nə qədər, yəni kiçik çillənin sonuna qədər hər əşirət və ocaq üç gün oruc tutmalıdır. Bu, "Xızır orucu", orucluqdan sonra verilən pay isə "Hz.Xızır loxması" adlanır. Adından da göründüyü kimi, müəllif məsələdə Ələvi İslam inancına üstünlük verir. Bu, "Qurani-Kərim"in Hz.Əli, Hz.Fatimə və ailəsinin 3 gün axşam iftarlıqlarını yoxsula, yetimə və əsirə verməklə yemək yemədən oruc tutmaları ilə bağlı yaranmış "İnsan" surəsinin ayələri ilə əlaqələndirilir. Müqayisəli araşdırmalar sübut edir ki, Naxçıvanda keçirilən Xıdır Nəbi mərasimində belə inamlar yoxdur.

Qarşılıqlı müqayisələr göstərir ki, Anadolunun bir sıra bölgələrində, Balkanın müsəlman-türk xalqları arasında "Xızır günü" aprelin 23-də qeyd olunur. Bu gündən əsl yazın başlandığına, may ayının 5-i və 6-da isə Xızır Peyğəmbərlə İlyas Peyğəmbərin (Hıdır-Ellez) görüşdüklərinə inanılır.

Bizcə, mərasimin Naxçıvanda olduğu kimi, qışın ən sərt vaxtında, bəlli bir gündə keçirilməsi, darda qalanlara yardıma gələn Xızırın çağırılması daha məntiqlidir, nəinki aprel ayının sonunda, çətinliyin bitdiyi bir zamanda.

Aprelin sonu və mayın əvvəllərindəki məsələyə gəlincə, bu, Naxçıvanda "qara yaz"ın, "yazan quru"nun bitməsinə uyğundur. Beləliklə, istilik və yaşıllıq məbudları birləşirlər. Bundan sonra mal-qara, xüsusən quzular üçün şeşə sovuşur ("şeşə sovan"), həmçinin meyvə ağaclarını və digər bitkiləri şaxta vurması təhlükəsi tam keçir. Xalqın yaddaşına, uzun illərin təcrübəsinə əsaslanaraq demək olar ki, Naxçıvanda aprelin üçüncü ongünlüyündə havaların soyuq keçməsi, hətta şaxtaların olması müşahidə edilmiş təbiət hadisələrindəndir. Deməli, insanlar mayın əvvəllərindən təhlükənin sovuşduğuna inanmışlar.

Maraqlıdır ki, XX yüzilliyin ortalarına qədər Naxçıvanda da mayın 5-6-sı xalq arasında, daha çox gəlinlərin və qızların iştirak etdikləri "Gülənay", "Gülay" adları ilə bilinən mərasim qeyd olunmuşdur. Bəzən buna "pencər yığılan" da deyilmişdir. Bundan sonra ələyəz, əvəlik, çaşır və sair yığılmağa başlanardı. Müqayisəli təhlillər sübut edir ki, bu mərasimdə əməl edilən adət və inamlar Anadolu bölgələri ilə ciddi oxşarlığa malikdir. Bütün bunlar Xıdır Nəbi, Xıdır İlyasla bağlı xalq arasında olan adət və inamlardır.

Elmi ədəbiyyatlarda, yazılı mənbələrdə Xızır Peyğəmbərlə, Xıdır-Nəbi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Müəlliflərin bir qismi "Xızır" sözünü "istilik" sözü, etnos adı, təqvim adətləri ilə bağlayır. Təbii ki, Xıdır Nəbi mərasimi təqvimlə bağlıdır. Lakin adətin Xızır Peyğəmbərin şərəfinə keçirildiyi, ondan kömək umulduğu aydın şəkildə görünməkdədir.

***Hz. Xızır darda qalanların imdadına çatır, xəstələrə şəfa verir, insanı muradına çatdırır. "Kitabi-Dədə Qorqud"da Hz.Xızır yaralı vəziyyətdə olan Buğacın üstünə gəlir, yarasını sığallayıb deyir ki, bu yaradan sənə ölüm yoxdur, dərmanın ana südü, dağ çiçəyidir. "Aşıq Qərib" dastanında Qəribi Şahsənəmə çatdırır, darda qalanlara yardım edir.***

**Hacı Qadir QƏDİRZADƏ**
***AMEA-nın müxbir üzvü***

---

2014-cü ilin muxtar respublikamızda "Muxtariyyət ili" elan edilməsi ilə əlaqədar Şərur rayonunda stolüstü tennis üzrə rayon birinciliyi keçirilmişdir. Rayonda

## Stolüstü tennis yarışı

stolüstü idman növünü inkişaf etdirmək, idmanın kütləviliyinə nail olmaq məqsədilə keçirilən birinciliyi Şərur Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsi təşkil etmişdir. Birincilikdə 8 komandada 48 idmançı mübarizə aparmışdır. Olimpiya sistemi üzrə keçirilən yarışda Şərur şəhər 2 nömrəli tam orta məktəbin komandası birinci, Muğanlı kənd tam orta məktəbinin idmançıları ikinci və Şərur şəhər 1 nömrəli tam orta məktəbin tennisçiləri isə üçüncü yerlərə sahib olmuşlar.

Qalib komandalara diplomlar verilmişdir.

## Şahmat üzrə rayon birinciliyi

"Muxtariyyət ili" ilə əlaqədar Şahbuz rayonunun ümumtəhsil məktəblərinin şagirdləri arasında şahmat üzrə rayon birinciliyi təşkil edilib. İsveçrə sistemi üzrə keçirilən yarışın qalibləri birinciliyə qatılan 22 şahmatçı arasında müəyyən olunublar. Yekun nəticəyə görə, Şahbuz Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin yetirməsi Qəndab Cəfərli ən yüksək nəticəni göstərib. Məktəbin üzvlərindən Nuray Quluzadə ilə Mətləb Məhərrəmli isə ikinci və üçüncü yerləri bölüşüblər.

Şahbuz Rayon Gənclər və İdman İdarəsi və Təhsil Şöbəsinin təşkil etdikləri yarışda fəxri yerləri tutan idmançılar təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

---

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Məşğulluğun təmin edilməsində işəgötürənlər hansı qaydada iştirak edirlər?*

***Cavab**:* "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə əsasən, işəgötürənlər dövlət məşğulluq siyasətinin həyata keçirilməsinə qanunvericiliyə uyğun olaraq, əmək münasibətlərini tənzimləyən əmək müqavilələrinin (kontraktların) şərtlərinə əməl edilməsi, istehsalatın dayandırılması və ya işçilərin sərbəstləşdirilməsi təqdirində onların müdafiəsi üçün kollektiv müqavilələrdə, sazişlərdə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, əlavə təhsil üçün şəraitin yaradılması və sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin müəyyən olunmuş qaydada işə düzəldilməsi əsasında köməklik göstərirlər.

İşçilərin sayı və ya ştatları ixtisar edildikdə işəgötürənlər işdən çıxarılacaq işçilərin peşəsini, sənətini, ixtisasını və əməkhaqqının məbləğini göstərməklə onların sərbəstləşdiriləcəyi barədə azı 2 ay əvvəlcədən müvafiq icra hakimiyyəti orqanına rəsmi məlumat verməli, boş iş yeri (vakansiya) yarandığı gündən ən geci 5 gün müddətində müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada müvafiq icra hakimiyyəti orqanını məlumatlandırmalıdırlar.

İşəgötürənlər müvafiq icra hakimiyyəti orqanına, həmin orqanın göndərişi ilə işə qəbul edilənlər, kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında aylıq hesabatlar təqdim etməlidirlər. İşəgötürənin ona bilavasitə müraciət etmiş vətəndaşları müvafiq icra hakimiyyəti orqanının göndərişi ilə gəlmiş vətəndaşlar ilə bərabər əsaslarla işə qəbul etmək və əmək bazarının vəziyyəti haqqında müvafiq icra hakimiyyəti orqanından məlumat almaq hüquqları vardır. Kvota ilə müəyyən olunduğundan artıq sayda sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxsləri işlə təmin edən işəgötürənlərə qanunvericiliklə müəyyən edilmiş qaydada güzəştlər nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

---


## "Karbon Qazı Zavodu" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

27 mart 2014-cü il tarixdə saat $11^{00}$-də Culfa rayonundakı "Karbon Qazı Zavodu" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Səhmdarların növbədənkənar ümumi yığıncağının keçirilməsi reqlamentinin təsdiq edilməsi*
*2.Cəmiyyətin qiymətli kağızlarının dövriyyədən çıxarılması və ləğv edilməsi*
*3. Digər məsələlər*

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan: Culfa rayonu, Darıdağ massivi, cəmiyyətin inzibati binası**

## *İtmişdir*

Naxçıvan şəhəri, Firdovsi küçəsi, ev 8-də yaşamış Ələkbərov Elxan Yaqub oğlunun adına Daşınmaz Əmlakın Dövlət Reyestri tərəfindən 22.02.2009-cu il tarixdə verilmiş 0011329 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

## *Allah rəhmət eləsin*

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev və nazirliyin kollektivi **YUSİF BABAYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi İnformatika kafedrasının müdiri **NURƏLİ MAHMUDOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserin baş həkimi Mirkamal Seyidov və dispanserin kollektivi iş yoldaşları Gülşən Həsənquliyevaya, əzizi **NURƏLİ MAHMUDOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Müəllimlər İnstitutunun rektorluğu və professor-müəllim kollektivi **NURƏLİ MAHMUDOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Özəl Universitetinin rektorluğu və professor-müəllim heyəti **YUSİF BABAYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Endokrinoloji Dispanserin həkimlərindən Aysel Dünyamalıyeva, Afaq Seyidova, Aysel İbrahimova və İradə Eyvazova iş yoldaşları Gülşən Həsənquliyevaya, əzizi **NURƏLİ MAHMUDOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri İmamqulu Əhmədov və şöbənin kollektivi **YUSİF BABAYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Babək Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Aybəniz Babayeva və şöbənin kollektivi **YUSİF BABAYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

İlyar Vahabov və Tofiq Rüstəmli yaxın dostları **YUSİF BABAYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Musiqi Kollecinin müəllimlərindən Leyla Əlimərdanova, Həsən Seyidov və Səməd Əsgərov **YUSİF BABAYEVİN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.



ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 149